EVDƏ QAL, SAĞLAM QAL!

Birinci vitse-prezident Mehriban Əliyeva Heydər Əliyev Fondunun başlatdığı qanvermə aksiyasına könüllü qoşulanlara təşəkkür edib



Bax 3

Sahibə Qafarova: "Milli Məclis Azərbaycan Prezidentinin qarşıya qoyduğu mühüm vəzifələri uğurla yerinə yetirməyə çalışacaq"



Bax 5


# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 063 (6028) 17 aprel 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.




Bax 3

## Heydər Əliyev Mərkəzinin binası üzərinə Avropa İttifaqının bayrağı videoproyeksiya olunub

Aprelin 15-də Heydər Əliyev Mərkəzinin binası üzərinə Avropa İttifaqının bayrağı videoproyeksiya olunub. Bununla Azərbaycanın koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə həmrəyliyi nümayiş olunub. SİA xəbər verir ki, aprelin 3-dən başlayaraq zərərçəkən dövlətlərin bayraqları həmin ölkələrin...

# XALQ-PREZİDENT birliyinin təcəssümü!



Dünyada koronavirus pandemiyasının qlobal həddə çatmaqla insanların sağlamlıqlarına zərər vurması reallığı bəşəriyyəti ciddi şəkildə narahat edir. Hətta ən aparıcı dövlətlərdə belə - ABŞ-da, İtaliyada, İspaniyada və s. ölkələrdə müvafiq strukturların epidemiyanın qarşısındakı acizliyi barədə dünya KİV-lərində məlumatlar yayılır, sosial şəbəkələrdə demək olar ki, hər saatda yüzlərlə xəbərlər ictimailəşir. Əbəs deyil ki, BMT və s. nüfuzu qurumlar koronavirusla...

Bax 2



Bax 11

## Fransada koronavirusdan bir gündə 1500 insan ölüb

Sərt tədbirlərə baxmayaraq, Fransada 24 saat ərzində koronavirusdan demək olar ki, 1,5 min insan ölüb. SİA xarici mətbuata istinadən xəbər verir ki, aviadaşıyıcı gəmi də yeni bir yoluxma ocağına çevrilib. Bu gəminin göyərtəsində təxminən 700 nəfər virusa yoluxmuş insan var. "Şarl De Qoll" təcili olaraq limana çağırılıb və bütün dənizçilər iki həftə təcridxanaya göndərilib. İtaliyada pandemiya qurbanlarının ümumi sayı 21 mini keçib...

## Jalə Əliyeva: Bu tarixi yazana "Əhsən, yaşasın!" yaraşır



Tarix yaradılır, sonra yazılır...Tarix yaradan, həm də tarix yazır və yazdırır... Vərəqləyib geridə qoyduğumuz təqvim səhifələri də bu gün şanlı bir tarix olur, ən yeni tariximizin qürurlu şahidinə çevrilir... Bu şanlı tarixi yaradan və yazan...

Bax 7

## Ronaldo Koronavirusla mübarizə üçün 1 milyon avro bağışladı



Bax 16

Məşhur portuqaliyalı futbolçu, hazırda İtaliyanın "Yuventus" klubunda forma geyən Kriştiano Ronaldo koronavirusa görə yardım edən məşhurlar sırasındadır. O, koronavirusla mübarizə aparan səhiyyə müəssisələri üçün xeyriyyə kampaniyasına...

"Radikal nadürüstlərə qarşı susqun qalmaq olmaz"



Bax 14

Müasir milli çağırışlar, Prezident İlham Əliyevin nitqi və radikal müxalifətin antimilli fəaliyyəti



Bax 8

Əli Kərimlinin maxinasiya əməllərini ictimaiyyət bilməlidir



Bax 14

# XALQ-PREZİDENT birliyinin təcəssümü!

***Dünyada koronavirus pandemiyasının qlobal həddə çatmaqla insanların sağlamlıqlarına zərər vurması reallığı bəşəriyyəti ciddi şəkildə narahat edir. Hətta ən aparıcı dövlətlərdə belə - ABŞ-da, İtaliyada, İspaniyada və s. ölkələrdə müvafiq strukturların epidemiyanın qarşısındakı acizliyi barədə dünya KİV-lərində məlumatlar yayılır, sosial şəbəkələrdə demək olar ki, hər saatda yüzlərlə xəbərlər ictimailəşir. Əbəs deyil ki, BMT və s. nüfuzu qurumlar koronavirusla mübarizəni görünməyən düşmənin insanlara qarşı müharibəsi adlandırıblar. Bu, həqiqətən də bir savaşdır - bəşər övladı ilə qorxulu infeksiyanın ölüm-dirim savaşı...***



Lakin bütün bunların fonunda ən çox qeyd edilən məsələlərdən biri də, COVID-19-a qarşı hazırlıqların olması haqqındadır. Daha dəqiq desək, bu gün ən çox zərər görən ölkələr məhz koronavirus təhlükəsinə ciddi yanaşmayaraq, ona biganə olanlardırlar. Nəticədə yüz minlərlə insan bu infeksiyaya yoluxur, minlərlə insan həyatını itirir. O cümlədən, tibbi avadanlıqların qıtlığı, maska, dezinfeksiyaedici məhlulların tapılmaması kimi məsələlərlə yanaşı, buraya əlbəttə ki, insanların məsuliyyətsizliyi, yaşadıqları ölkələrdəki cavabdeh qurumların maarifləndirici tədbirlər aparmamaları və s. halları da əlavə etmək olar.



### Artıq "Biz birlikdə güclüyük" şüarı günümüzün reallığına çevrilib

Ancaq Azərbaycanda bu kimi xaos, panika yaşanmadı və fakt budur ki, ölkəmizdə zamanında və operativ qaydada görülən tədbirlər çoxsaylı insan təlefatları ilə müşahidə edilmədi, vaxtında ciddi karantin tətbiqi barədə qərar qəbul olundu və ən əsası, xəstəxanalar hazırlıqlı vəziyyətə gətirildi, tələb olunan tibbi avadanlıqlarla təchiz olundu, habelə belə bir vəziyyətdə yeni xəstəxanalar istifadəyə verildi. Bütün bu reallıqların təməlində dayanan ən əsas faktorlardan biri isə, ölkəmizdə aparılan siyasətin tərkibində insan amilinə göstərilən diqqət və Prezident İlham Əliyevin müxtəlif cavabdeh qurumlara, güc strukturlarına, səhiyyə təşkilatlarına, sahibkarlıq müəssisələrinə verdiyi qətiyyətli tapşırıqları və görülən işlərə şəxsi nəzarəti reallığı dayanır.

O cümlədən, dövlətimizin başçısının xalqa müraciəti və müraciəti kontekstində xalqın qayğısına qalan, sosial təminat maraqlarını təmin etməyə yönəlik çağırışları, qərarları qısa müddətdə koronavirus təhlükəsinin ayaq açıb yeriməsinin qarşısını inamla aldı. Artıq "Biz birlikdə güclüyük" şüarı günümüzün reallığına çevrilib. Xüsusilə, virusdan sağalanların sayının artımı hər bir azərbaycanlıda inamı daha da artırıb.

Artıq bu gün ölkənin hər yerindən Prezident İlham Əliyev cənablarına minnətdarlıq məktubları göndərilməkdədir. Bu məktublarda Azərbaycanın hər bölgəsindən, ucqar kəndlərindən təşəkkür sədaları ucalmaqdadır. Həmin məktublardan bir neçəsini dəyərli oxucularımızın diqqətinə çatdırırıq:

**Bəhmən Paşayevdən, Mingəçevir, Azərbaycan:** "Cənab Prezident, əminik ki, "Biz birlikdə güclüyük!" çağırışınızla bu virusa tez bir zamanda qalib gələcək"

Möhtərəm cənab Prezident.

Bütün dünyada sürətlə yayılan koronavirus pandemiyası vətənimiz Azərbaycandan da yan keçməyib. Sizin uzaqgörən siyasətiniz nəticəsində ölkəmizdə pandemiyanın təsirinin azaldılması və əhatəsinin məhdudlaşdırılması istiqamətində vacib addımlar atılıb. Ölkədə xüsusi karantin rejiminin tətbiq edilməsi, yeni koronavirusun yayılmasının qarşısının alınması, onunla mübarizənin gücləndirilməsi məqsədilə zəruri tibbi avadanlığın və digər tibbi vasitələrin tədarükü üçün vəsaitin ayrılması, Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılması onu sübut edir ki, yürütdüyünüz siyasətin təməlində Azərbaycan vətəndaşı və onun rifahı dayanır.

Cənab Prezident, əminik ki, "Biz birlikdə güclüyük!" çağırışınızla bu virusa tez bir zamanda qalib gələcək, bu bəladan az itki ilə qurtulacağıq. Bütün mingəçevirlilər Sizə güvənir, Sizinlə qürur duyur, şərəfli və məsuliyyətli işinizdə Sizə uğurlar diləyirlər.

**Mətləb Məhərrəmov və başqalarından, Gəncə, Azərbaycan:** "Sizin vaxtında gördüyünüz tədbirlərin real nəticələr verəcəyini əvvəlcədən gözləyirdik"

Hörmətli cənab Prezident.

Koronavirus pandemiyasının ölkəmizdə kütləvi yayılmasının qarşısını almaq üçün atdığınız addımlar öz nəticəsini verməkdədir. Bir neçə gündür bu virusla əlaqədar Azərbaycanda nikbin statistika müşahidə olunur. Xəstəliyə yoluxanlarla sağalanların sayının təqribən eyni olması ümidlərimizi və inamımızı daha da artırır. Sizin vaxtında gördüyünüz tədbirlərin real nəticələr verəcəyini əvvəlcədən gözləyirdik. İnanırıq ki, bu sahədə vəziyyət get-gedə daha da yaxşılaşacaq və xalqımızın canı bu bəladan birdəfəlik qurtaracaq.

Cənab Prezident, Ulu Tanrı hər zaman yolunuza işıq salsın, Sizi bədnəzərdən qorusun.

*Hörmətlə,*

Məhərrəmov Mətləb İbrahim oğlu

Quliyev Telman Qəhrəman oğlu

Həsənova Aygün Abasqulu qızı

Allahverdi Mehriban Mahmud qızı və başqaları.

Qabil Bağırovdan, Salyan, Azərbaycan: "Siz bir daha hər bir azərbaycanlının Prezidenti olduğunuzu təsdiq etdiniz."

*Hörmətli Prezident.*

Koronovirus epidemiyası Azərbaycan sərhədlərini keçən kimi Sizin gördüyünüz qabaqlayıcı tədbirlər, xəstəliyin daha geniş ərazini əhatə etməməsi üçün verdiyiniz tapşırıqlar bu problemi nəzarətdə saxlamağa imkan verdi. Bu tədbirlər Sizin üçün xalqın sağlamlığının hər şeydən üstün olduğunu göstərir. Bununla da Siz bir daha hər bir azərbaycanlının Prezidenti olduğunuzu təsdiq etdiniz.

Müxtəlif sosial təbəqələrdən olan insanlara kömək edilməsi, bu məqsəd uğrunda hamının səfərbər olması Sizin bu gərgin və məsuliyyətli günlərdə söylədiniz "Biz birlikdə güclüyük!" çağırışının sayəsində oldu.

*Hörmətlə,*

*Bağırov Qabil*

*Qafarov Dadaş*

*Rzayev Teymur*

Musayev Ceyhun və başqaları.

Əlbəttə ki, bu ürək sözləri, səmimi minnətdarlıq hissləri xalqın öz dövlətinə, bu dövlətin adını daim uca tutan rəhbərinə, liderinə olan sevgisinin, eyni zamanda, XALQ-PREZİDEDNT birliyinin parlaq təcəssümüdür. Məhz bu birlik və həmrəylik addımları ilə Azərbaycan dövləti koronavirusla mübarizədən qalib ayrılacaq və artıq bunun işartıları da görünməkdədir!

***Rövşən RƏSULOV***

facebook

# Birinci vitse-prezident Mehriban Əliyeva Heydər Əliyev Fondunun başlatdığı qanvermə aksiyasına könüllü qoşulanlara təşəkkür edib

**_Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində paylaşım edərək, Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına könüllü qoşulanlara təşəkkürünü bildirib._**



AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Azərbaycan xalqının hər zaman birlik və həmrəylik nümayiş etdirərək bir-birinə kömək etməyə hazır olması, əl-ələ verərək çətinlik və sınaqlardan birlikdə üzüağ çıxması bizim ən gözəl xüsusiyyətlərimizdən biridir. İrsi qan xəstəliklərindən, xüsusilə də talassemiyadan əziyyət çəkən insanlara kömək məqsədilə Heydər Əliyev Fondu tərəfindən başlanılmış qanvermə aksiyasına könüllü olaraq çoxsaylı vətəndaşlarımızın qoşulması bunu bir daha göstərdi. Bu nəcib təşəbbüsə qoşulan hər kəsə dərin minnətdarlığımı bildirirəm. Hamıya möhkəm cansağlığı arzulayıram. Qoy, xoş əməllərin sayı artsın! Uca Tanrı sizi qorusun!".

## Leyla Əliyevanın təşəbbüsü ilə aztəminatlı ailələrə yardım edildi

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Bakıda aztəminatlı ailələrə müxtəlif ərzaq məhsullarından ibarət yardım bağlamaları təqdim olunub.





Trend-in məlumatına görə, koronavirus (COVID-19) xəstəliyi ilə əlaqədar ölkədə tətbiq olunan xüsusi karantin günlərində Heydər Əliyev Fondu tərəfindən ölkə üzrə aztəminatlı ailələrə müxtəlif yardım payları çatdırılır. Xatırladaq ki, Heydər Əliyev Fondu fəaliyyəti çərçivəsində mütəmadi olaraq aztəminatlı ailələrə, xüsusi qayğıya ehtiyacı olan şəxslərə yönəlik müxtəlif layihələr həyata keçirir.

# Heydər Əliyev Mərkəzinin binası üzərinə Avropa İttifaqının bayrağı videoproyeksiya olunub

**_Aprelin 15-də Heydər Əliyev Mərkəzinin binası üzərinə Avropa İttifaqının bayrağı videoproyeksiya olunub. Bununla Azərbaycanın koronavirus (COVID-19) pandemiyası ilə mübarizədə həmrəyliyi nümayiş olunub._**



SİA xəbər verir ki, aprelin 3-dən başlayaraq zərərçəkən dövlətlərin bayraqları həmin ölkələrin musiqisinin müşayiəti ilə hər gün mərkəzin binası üzərinə proyeksiya olunur. Bununla Heydər Əliyev Mərkəzi COVID-19-un geniş yayıldığı dövlətlərə və onların xalqlarına dəstəyini, hörmət və ehtiramını ifadə edir. İndiyədək koronavirus xəstəliyinin geniş yayıldığı Çin, Fransa, Almaniya, İran, İtaliya, Rusiya, İspaniya, Türkiyə, Böyük Britaniya, ABŞ və Gürcüstanın bayraqları Mərkəzin binasının üzərində nümayiş olunub.

## Ursula fon der Layen: "Avropa İttifaqının tarixində ən ağır il olacaq"

Avropanın iqtisadiyyatında iqtisadi böhran karantin ölçüləri nəticəsində baş verəcək və bu, Avropa İttifaqının (Aİ) tarixində ən ağırı olacaq. SİA xəbər verir ki, bu barədə Aİ komissiyasının rəhbəri Ursula fon der Layen Avroparlamentin onlayn sessiyasında çıxış edərkən deyib. O, gələcək illərdə Aİ-nin büdcəsinin genişləndirilməsini təklif edib. Belə ki, nə Aİ-nin iqtisadi yardım üzrə fəaliyyət göstərən institutları ilə razılaşdırılmış 540 milyard avro, nə Aİ-nin tərkibində olan 27 ölkənin milli maraqları üçün tətbiq etdikləri ümumi məbləğ - 3 trilyon avroluq ölçülər böhrandan çıxmaq üçün yetərli olmayacaq.

"O, Avroparlamenti Aİ institutlarının iqtisadi dəstək yönündə qəbul etdiyi son qərarlarını dəstəkləməyə çağırıb. Layen o cümlədən, aprelin 14-də Avropa qrupu tərəfindən təsdiq edilən və Aİ ölkələrinə məxsus müəssisələrin 540 milyardlıq kreditləşdirmə proqramını əks etdirən qərarın da dəstəkləməyə dəvət edib.

## Avropa İttifaqı həmrəyliyə görə Azərbaycana təşəkkür edib

Avropa İttifaqı (Aİ) Nümayəndəliyinin rəhbəri, səfir Kestutis Yankauskas həmrəyliyə görə Azərbaycana təşəkkür edib. Trend-in məlumatına görə, bu barədə Avropa İttifaqı Nümayəndəliyinin rəsmi "Facebook" səhifəsində qeyd edilib. K.Yankauskas yazıb: "Heydər Əliyev Mərkəzində dalğalanan Avropa İttifaqının bayrağı, Aİ və Azərbaycan arasındakı həmrəylik və tərəfdaşlıq əlaqələrinin əksidir. Birlikdə daha güclüyük! Sağ ol, Azərbaycan!"



Qeyd edək ki, koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizədə Azərbaycanın dəstəyini nümayiş etdirmək məqsədilə aprelin 15-də Heydər Əliyev Mərkəzinin binası üzərinə Avropa İttifaqının bayrağı videoproyeksiya olunub.

Aprelin 3-dən başlayaraq virusdan zərər çəkən bir dövlətin bayrağı həmin ölkənin musiqisinin sədaları altında Mərkəzin binası üzərinə proyeksiya olunur. Bununla da Heydər Əliyev Mərkəzi "COVID-19" un geniş yayıldığı dövlətlərə və onların xalqlarına dəstəyini, hörmət və ehtiramını ifadə edir. İndiyədək Çin, Fransa, Almaniya, İran, İtaliya, Rusiya, İspaniya, Türkiyə, Böyük Britaniya, ABŞ və Gürcüstanın bayraqları Mərkəzin binasının üzərində nümayiş olunub.

# Əli Hüseynli: "Siyasi partiyaların qeydiyyata alınması ölkəmizdə mövcud olan yeni siyasi münasibətlərin təzahürüdür"

**_Siyasi partiyaların qeydiyyata alınması ölkəmizdə mövcud olan yeni siyasi münasibətlərin təzahürüdür. Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Ədliyyə Nazirliyi tərəfindən yeni partiyaların qeydiyyata alınmasına münasibət bildirərkən deyib._**



Ədliyyə Nazirliyinin kollegiyasının qərarı ilə Azad Demokratlar Partiyasının və Yeni Zaman Partiyasının qeydiyyata alınmasını çox müsbət hal kimi dəyərləndirən komitə sədri qeyd edib ki, bu partiyalar uzun illər mövcud olsa da qeydiyyatsız fəaliyyət göstərirdilər. Hazırda isə siyasi partiyaların qeydiyyata alınması ölkəmizdə mövcud olan yeni siyasi münasibətlərin təzahürüdür.

Əli Hüseynli vurğulayıb ki, ölkəmizdə cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən islahatlar siyasi sistemi də əhatə edir. Hazırda fərqli siyasi baxışlarına baxmayaraq, milli dövlətçilik mənafeyindən, dövlət maraqlarından çıxış edən siyasi qüvvələrlə dialoq daha da dərinləşməkdədir.

Komitə sədri xatırladıb ki, altıncı çağırış Milli Məclisdə ilk dəfə olaraq müxalifət partiyasını təmsil edən millət vəkili Milli Məclisin sədr müavini seçilib. "Həmçinin komitələrin sədr və sədr müavinləri sırasında müxalifət partiyalarının təmsilçiləri də yer alıb. Bütün bunlar həm də Azərbaycanda çoxpartiyalı sistemin təkmilləşdirilməsinə, siyasi sistemin yeni konfiqurasiyasının formalaşmasına xidmət edir. Yeni siyasi partiyaların qeydiyyata alınması isə ölkəmizdə siyasi sistemin daha da təkmilləşməsinə və münasibətlərin daha sağlam zəmində qurulmasına xidmət edəcək", - deyə Əli Hüseynli vurğulayıb.

# Azərbaycan Prezidenti hər zaman olduğu kimi yenə də öz xalqının yanındadır!

*Prezident İlham Əliyevin insanların sağlamlığının qorunması ilə bağlı verdiyi sərəncamlar ölkə əhalisi tərəfindən vətəndaşına göstərinlən diqqət və qayğı kimi qiymətləndirilir*

***Azərbaycanda koronavirus epidemiyasının qarşısının alınması istiqamətində görülən qabaqıyıcı tədbirlər öz müsbət nəticəsini verməkdədir. Ölkə Prezidenti İlham Əliyevin insanların sağlamlığının qorunması ilə bağlı verdiyi sərəncamlar ölkə əhalisi tərəfindən vətəndaşına göstərinlən diqqət və qayğı kimi qiymətləndirilir. Bunu Prezidentin saytına istinadla yayılan minnətdarlıq məktublarıda təsdiqləyir.***

Daşkəsən rayon sakinləri Abbas Tağıyev, Saleh Qurbanov, Oktay Cəfərov və İdris Bağırov Prezidentə ünvanladıqları minnətdarlıq məktublarında koronavirusun ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində görülən işlərin təqdirəlayiq olduğunu qeyd edirlər. Onlar yazırlar: "Hörmətli Cənab Prezident, koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması istiqamətində Sizin rəhbərliyinizlə görülən işlər təqdirəlayiqdir. Qəbul edilən qərarlara uyğun olaraq rayonumuzda da xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar-epidemioloji normalara şərtsiz əməl olunması üçün zəruri tədbirlərin görülməsi davam etdirilir. Küçə və prospektlərdə, ayrı-ayrı ərazilərdə, yaşayış binalarında və inzibati binalarda dezinfeksiya işləri aparılır. Aztəminatlı ailələrə maddi yardım göstərilir, əhalinin sağlamlığının qorunması üçün mühüm tədbirlər görülür.

Ağcabədi rayonunun sakini Natiq Əlişov yazır: "Möhtərəm cənab Prezident, dünyanı bürümüş yeni koronovirus pandemiyasının respublikamızda yayılmasının qarşısının alınması istiqamətində gördüyünüz bütün tədbirlər bir daha sübut etdi ki, hər zaman olduğu kimi Azərbaycan Prezidenti öz xalqının yanındadır. Əminik ki, bu birlik bizə belə ağır sınaqdan qələbə ilə çıxmağa imkan verəcək. Rəhbərliyinizlə vaxtında görülmüş operativ və təxirəsalınmaz tədbirlər nəticəsində hazırda respublikamızda koronovirus pandemiyasına qarşı səmərəli mübarizə aparılır. Koronavirusa qarşı mübarizə tədbirləri ilə bağlı imzaladığınız sərəncamlar, açılan yeni xəstəxanalar, yeni müəssisələr göstərir ki, Azərbaycan bu çətin sınaqdan alnıaçıq çıxacaq. Dövlətimiz bu gün də öz vətəndaşının sağlamlığını qorumaq və pandemiyanın yayılmasının qarşısını almaq üçün səylərini davam etdirir. Xalqımızın bu bəladan minimum zərərlə xilas olacağına əminliklə inanırıq. Xalqımıza göstərdiyiniz dəstəyə və qayğıya görə Sizə və Mehriban xanıma bütün qarabağlılar adından təşəkkürümü bildirir, Sizə və ailənizə uzun ömür, cansağlığı arzu edirəm.

Avropa Gimnastika İttifaqının prezidenti Fərid Qayıbov İsveçrə Konfederasiyasının Lozanna şəhərindən yazır: "Hörmətli cənab Prezident, hazırda bütün dünyada koronavirus pandemiyası ilə mübarizə aparıldığı bir zamanda ölkəmizdə tərəfinizdən vaxtında lazımi qabaqlayıcı tədbirlərin görülməsi, əhalinin sağlamlığının qorunması istiqamətimdə görülən operativ işlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Bütün idman növlərində olduğu kimi, Sizin daimi diqqət və qayğınızı hiss edən Azərbaycan gimnastları məşqlərini dayandıraraq xüsusi karantin rejiminin qaydalarına riayət etməkdədirlər. Bu



gün dünyadakı çətin vəziyyətə baxmayaraq, ölkəmizdə ailəsinin əhatəsində evdə qalan hər bir şəxsin ruhdan düşməməsi və müsbət düşünməsi sayənizdə gələcəyə inamla baxmasından qaynaqlanır. Azərbaycanda hər bir sahədə olduğu kimi, idman sahəsində də yaradılan şərait paytaxtımızda keçirilən gimnastika növləri üzrə mötəbər beynəlxalq yarışlarda iştirak edən nümayəndə heyətləri tərəfindən də yüksək qiymətləndirilir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Azərbaycan Gimnastika Federasiyası tərəfindən fevral ayında təşkil olunmuş batut gimnastikası üzrə dünya kubokunda artıq ölkəmizin koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına yönəlmiş profilaktik tədbirlər görməsi böyük təqdirlə qarşılanmışdı. Mart ayında isə Operativ Qərargahın kütləvi tədbirlərin təxirə salınması qərarına müvafiq olaraq idman gimnastikası üzrə dünya kubokunun final mərhələləri ləğv olundu. Bir sıra ölkələr tərəfindən sərhədlərin bağlandığı bir vaxtda bütün iştirakçıların müvafiq dövlət strukturlarının dəstəyi sayəsində yola salınmasından sonra nümayəndə heyətlərinin rəhbərləri ölkəmizə xüsusi təşəkkürlərini bildirdilər. Avropanın gimnastika federasiyalarının mövcud olduğu 50 ölkəsində koronavirusa qarşı mübarizə aparılır. Bu ölkələr arasında hələ qlobal pandemiya elan olunmamışdan əvvəl Sizin rəhbərliyinizlə Azərbaycan koronavirusa həssas yanaşması ilə seçilirdi. Hazırkı vəziyyətlə əlaqədar bütün dünyada olduğu kimi, aprel və may aylarında Bakıda keçirilməsi planlaşdırılan bədii gimnastika üzrə dünya kuboku, aerobika gimnastikası üzrə dünya yaş qrupları yarışları və dünya çempionatının, o cümlədən kişi idman gimnastikası üzrə Avropa çempionatının keçirilməsi təxirə salınıb. Əminəm ki, COVID-19-un Azərbaycanda geniş yayılmasının qarşısını alınması üçün gördüyünüz bütün bu tədbirlər nəticəsində ölkəmiz qlobal pandemiya sınağından layiqincə çıxacaq, idmançılarımız məşqlərini bərpa edəcək və təxirə salınmış idman tədbirlərinə ölkəmiz yeni tarixlərdə yüksək səviyyədə ev sahibliyi edəcək".

Tərtər rayonunun Bəyimsarov kəndinin sakini, 1-ci dərəcəli "Əmək" ordenli fermer Fazil Vəliyev yazır:"Möhtərəm cənab Prezident, bu çətin günlərdə - ölüm kabusunun insanların aldığı hər nəfəsdə dolaşarkən xalqla birlikdə olduğunuza, COVID-19 pandemiyasının ölkəmizdə qarşısının alınması üçün qabaqlayıcı tədbirlər gördüyünüzə görə Sizə minnətdarıq. İnanırıq ki, dünya tezliklə bu bəladan xilas olacaq, həyatımız əvvəlki axarına düşəcək. Çox hörmətli Prezidentimiz, biz fermerlər Sizin yürütdüyünüz siyasəti dəstəkləyirik, ətrafınızda sıx birləşmişik. Çünki Siz dediyiniz kimi, "Biz birlikdə güclüyük!". Tanrı Sizi qorusun!".

Bakı şəhəri Yasamal rayonunun sakini Veysəl Vəliyev ölkəmizdə koronavirusun geniş yayılmaması istiqamətində görülən işlərin əhəmiyyətini vurğulayaraq yazır: "Çox hörmətli, qayğıkeş Prezidentimiz, hazırda dünya dəhşətli bir bəla ilə üz-üzədir. Azərbaycan bu qlobal problemdən az itki ilə çıxmaq üçün ciddi addımlar atır. Bütün bunlar Sizin həyata keçirdiyiniz səmərəli tədbirlərin nəticəsidir. Mən O.Kutafin adına Moskva Dövlət Hüquq Universitetində magistr təhsili alıram və Sizin göstərişinizlə martın 27-də xüsusi reyslə Rusiyadan ölkəmizə gətirilən tələbələrdən biriyəm. Bizi Heydər Əliyev Beynəlxalq Aeroportundan birbaşa Atletlər Kəndinə apardılar. Əvvəlcədən burada hər cür şərait yaradılmışdı. Ölkəmizin malik olduğu bu imkanlar məni qürurlandırdı. Çünki böyük dövlətlərin koronavirusa qarşı mübarizədə necə aciz qaldıqlarını hamı görür. Ancaq xaricdən gələn tələbələrimizə burada göstərilən diqqət və qayğı mükəmməl idi. Səliqə-sahman, vaxtında düzgün qidalanma, müayinə, həkimlərin xüsusi diqqəti məni çox sevindirdi. Karantində 14 gün qaldıqdan sonra evimizə göndərildik. Artıq ailəmə qovuşmuşam. Cənab Prezident, karantin müddətində mənə göstərilən diqqət və qayğıya görə həm öz adımdan, həm də valideynlərimin adından Sizə dərin minnətdarlığımı bildirirəm. Nə yaxşı ki, Azərbaycanımızın Sizin kimi lideri var. Siz hər zaman Azərbaycanı böyük bəlalardan qoruyursunuz. Ona görə də mən bir Azərbaycan gənci olaraq Sizinlə fəxr edirəm. Bir hüquqşünas kimi söz verirəm ki, yürütdüyünüz müstəqil siyasətinizin hər zaman dəstəkçisi olacağam. Tanrı Sizi qorusun!".

Gəncə şəhər sakinləri Rəşad Əliyev, Nurlana Beşirova, Akif Salmanov və Telman Quliyev görülən işlərin vətəndaşlarımız tərəfindən rəğbətlə qarşılandığını bildirərək yazırlar: "Çox hörmətli cənab Prezident, koronavirus pandemiyasının ölkəmizdə geniş yayılmasının qarşısının alınması istiqamətində atdığınız addımlar və verdiyiniz sərəncamlar vətəndaşlar tərəfindən böyük rəğbətlə və alqışla qarşılanır. Bu işlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Biz Sizə və dövlətimizə hər zaman güvənmişik. Pandemiya dövründə də belə oldu. Çox sağ olun ki, Sizə bəslənən ümidləri və güvəni hər zaman doğruldur, xalqımıza ruh yüksəkliyi bəxş edirsiniz. Ulu Tanrı hər zaman dayağınız olsun, cənab Prezident!".

Biləsuvar rayonunun sakini Məhərrəməli Kazımlı yazır: Hörmətli Prezidentimiz, Sizin uzun illərdir ölkəmizin səhiyyə sahəsində həyata keçirdiyiniz əsaslı islahatlar öz bəhrəsini verməkdədir. Yeni səhiyyə ocaqlarının istifadəyə verilməsi, ölkəmizdə yüksək səviyyəli tibbi heyətin formalaşmasına hesablanmış dövlət siyasəti imkan verəcək ki, koronavirus infeksiyasının daha az zərərlə aradan qaldırılmasına nail olaq. Bu çətin günlərdə modul tipli tibb müəssisələrinin yaradılması, tibbi maska istehsalı müəssisəsinin istifadəyə verilməsi Sizin çevik fəaliyyətinizin bariz nümunələridir. Biz - Biləsuvar veteranları Sizin bu fəaliyyətinizi alqışlayırıq. Cənab Prezident, qeyd etmək istəyirik ki, bütün bu tədbirlərin həyata keçirilməsində Sizinləyik. Biz birlikdə güclüyük!".

Bakı şəhərinin Suraxanı rayonunun sakinləri Sədaqət Manafova, İsmayıl Caniyev, Şahin Qəzənfərov, Rövşən Cabbarov, Zaur Məmmədovxanov və Validə Abdullayeva yazırlar: Hörmətli cənab Prezident, son illər respublikamızda aparılan abadlıq-quruculuq işləri Suraxanı rayonundan da yan keçməyib. Bu işlər Sizin imzaladığınız dövlət proqramlarının, fərman və sərəncamların icrası ilə mümkün olub və insanların rifahının yaxşılaşmasına, işsizliyin aradan qaldırılmasına xidmət edib. İlin əvvəlindən Yeni Suraxanı qəsəbəsində bir neçə küçə və yaşayış məntəqəsində daxili yollara asfalt örtüyün çəkilməsi bütün qəsəbə sakinlərini çox sevindirdi. Bundan sonra insanlar və avtomobillər bu yollarla daha rahat hərəkət edəcək. Bütün hallarda insanların rahatlığını düşünərək onların qayğısına qaldığınıza görə Sizə minnətdarlığımızı bildiririk. Tanrı Sizi qorusun!".

Bərdə rayonunun Şorelli kəndində yaşayan Qarabağ müharibəsi veteranı, Ağdərə rayonundan məcburi köçkün Nazim Paşayev: "Möhtərəm cənab Prezident, dünyanı bürüyən pandemiya ilə əlaqədar Sizin vaxtında gördüyünüz tədbirlər və verdiyiniz tapşırıqlar sayəsində ölkəmizdə epidemiyanın qarşısının alınmasına nail olundu. Keçmiş döyüşçü olaraq mən Sizi dövlətimizin həm Prezidenti, həm generalı, həm də sərhəddə, səngərdə məğrur dayanan bir əsgəri adlandırardım. Allah köməyiniz olsun. Sizin Azərbaycan xalqına göstərdiyiniz ata, qardaş qayğısı tarixboyu xatırlanacaq. Var olun, cənab Prezident! Biz döyüşdük, amma torpaqlarımızı, xalqımızı layiqincə qoruya bilmədik. Ancaq Siz xalqımızı böyük bəladan qorudunuz və qoruyursunuz. İnşallah, Allahın köməyi ilə Sizin sayənizdə biz bu bəladan üzüağ və minimum itki ilə çıxacağıq. Sizə uğurlar arzulayıram".

Quba rayonunun sakini Tehran Əmiraslanov: "Hörmətli cənab Prezident, hazırda dünya gözəgörünməz bir virusla böyük mübarizə aparır. Bu pandemiya ölkəmizdən də yan keçmədi. Bu arzuolunmaz "qonaq" əlbəttə ki, bir gün bizləri tərk edəcək. Sizin sözlərinizlə desək, bu çətinlikdən də ən az zərərlə qurtulmaq lazımdır. Sizin təxirəsalınmaz tapşırıqlarınız və ciddi nəzarətiniz ilə ölkəmizdə böyük tədbirlər görüldü və görülməkdədir. Əhaliyə göstərilən diqqət ölkənin hər yerini - bütün şəhər, rayon, kənd və qəsəbələri əhatə edir. Bu proseslər biz vətəndaşların gözü önündə baş verir və buna görə də Sizə təşəkkür edirik. Cənab Prezident, pandemiyadan əziyyət çəkən aztəminatlı ailələrə və sahibkarlara göstərdiyiniz yardım təqdirəlayiqdir. Buna görə rayonumuzun sakinləri adından Sizə təşəkkür edirik. Rayonumuzun sahibkarları, o cümlədən mən Sizlərin sahibkarlara göstərdiyiniz yardımlardan yararlandıq. Sizə bir daha minnətdarlığımı bildirirəm".

**İ.ƏLİYEV**

## Rəsmi xronika

Prezident İlham Əliyev E.S.Rüstəmovun Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, Elman Sirac oğlu Rüstəmov Azərbaycan Respublikası Mərkəzi Bankının sədri təyin edilib.

***

Prezident İlham Əliyev Qax rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# Sahibə Qafarova: “Milli Məclis Azərbaycan Prezidentinin qarşıya qoyduğu mühüm vəzifələri uğurla yerinə yetirməyə çalışacaq”

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.*



***- Sahibə xanım, bu, Milli Məclisin Sədri kimi sizinlə ilk müsahibəmizdir. Fürsətdən istifadə edib, sizi bir daha təbrik edir və uğurlar arzulayırıq.***

- Təşəkkür edirəm, sağ olun!

***- Bildiyimiz kimi, bu il fevral ayının 9-da Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər keçirildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev müxtəlif çıxış və nitqlərində bu seçkiləri Azərbaycanın demokratik inkişafı istiqamətində atılmış növbəti addım kimi dəyərləndirib. Seçkiləri izləyən beynəlxalq və yerli müşahidəçilərin mütləq əksəriyyəti də prosesi müsbət qiymətləndirib. Mövzunun aktuallığını nəzərə alaraq, sizin də bununla bağlı ümumi bir dəyərləndirmə aparmağınızı xahiş edirik.***

- Azərbaycanın demokratik inkişafı tarixində mühüm mərhələlərdən birini təşkil edən 9 fevral Azərbaycan Respublikası Milli Məclisinə növbədənkənar seçkilər azad, şəffaf və ədalətli şəkildə keçirilmişdir. Azərbaycan xalqının, Azərbaycan seçicisinin iradəsi bu seçkilərin nəticəsində ifadə olunmuşdur. Rekord sayda - 1300 nəfərdən çox namizədin iştirak etdiyi prosesdə bütün namizədlərə bərabər imkanlar yaradılmış, onların seçicilərlə görüşləri, öz fikirlərini, düşüncələrini seçicilərə sərbəst çatdırmaları üçün hər cür şərait təmin edilmişdir.

Bununla yanaşı, Azərbaycan dövləti seçkiləri izləmək üçün bir çox beynəlxalq təşkilatları, müşahidəçiləri dəvət etmiş, çoxsaylı beynəlxalq müşahidəçilər seçki prosesinin bütün mərhələlərində müşahidə aparmışlar. Ümumilikdə, 880-dən artıq beynəlxalq müşahidəçi seçkiləri izləmişdir ki, onlar da 58 ölkəni və 59 beynəlxalq təşkilatı təmsil etmişlər. 200-ə yaxın xarici kütləvi informasiya vasitəsinin əməkdaşları prosesi müşahidə etmiş və geniş işıqlandırmışlar. 77 min 800-ə yaxın yerli müşahidəçi müvafiq seçki qurumlarında qeydiyyatdan keçərək müşahidə aparmışlar, 4 təşkilat “exit-poll” həyata keçirmişdir. Müşahidəçilərin mütləq əksəriyyətinin prosesi müsbət dəyərləndirməsi də bir daha bu gerçəkliyi ifadə edir ki, 9 fevral seçkiləri bütün demokratik meyarlara cavab vermişdir. Möhtərəm Prezidentimiz İlham Əliyev də bir çox çıxış və nitqlərində, o cümlədən altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasındakı geniş nitqində seçkilərlə bağlı fikirlərini bildirmiş, seçki prosesinin uğurla keçdiyini söyləmiş, seçkilərin nəticələrinin Azərbaycan xalqının iradəsini əks etdirdiyini qeyd etmişdir.

***- Yeri gəlmişkən, Prezident İlham Əliyev altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında söylədiyi nitqində parlamentin gələcək fəaliyyəti ilə bağlı çox mühüm mesajlar verdi. Aprelin 14-də keçirilən 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirədə də dövlətimizin başçısı Milli Məclisdə islahatlar, parlamentdə baş verən dəyişikliklərlə bağlı təhlillər apardı. Bu mesajlar nədən ibarətdir və parlamentin qarşıdakı dövrdə fəaliyyətində hansı istiqamətlər prioritet olacaq?***

- Möhtərəm Prezidentimizin həm altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında söylədiyi nitqində, həm də aprelin 14-də keçirilən müşavirədə irəli sürdüyü dəyərli tövsiyələr bizim fəaliyyətimizin əsas istiqamətlərini müəyyənləşdirir və biz bunu “yol xəritəsi” olaraq qəbul edirik. Əlbəttə ki, Azərbaycan Respublikası Milli Məclisi bu böyük inamı və etimadı doğrultmağa, xalqımızın və ictimaiyyətin gözləntilərinə cavab vermək üçün daha səmərəli fəaliyyət göstərməyə, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışacaqdır. Bu vəzifələr, ilk növbədə, ondan ibarətdir ki, Milli Məclis qanunvericilik sahəsində müasir tələblərlə ayaqlaşan, ölkəmizin reallıqlarına və inkişaf dinamikasına əsaslanan, möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən quruculuq işlərinin hüquqi bazasının möhkəmləndirilməsinə xidmət edən yeni qanunvericilik təşəbbüsləri ilə çıxış etsin. Həmçinin Azərbaycan üçün prioritet təşkil edən könüllülük hərəkatı, gənclərlə iş, informasiya təhlükəsizliyi, sosial-müdafiə və digər sahələrdə yeniləşən, müasirləşən ölkə həyatının standartlarına cavab verən qanunvericilik bazasının yaradılması istiqamətində addımlar atılmalı, qanun yaradıcılığında da keyfiyyət tələbləri üstün tutulmalıdır. Yeri gəlmişkən, qeyd etmək istərdim ki, bu günə qədər altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin artıq beş iclası keçirilib ki, bu iclaslarda da 44 qanun və qərar qəbul olunub.

Milli Məclisin əsas fəaliyyət istiqamətlərindən biri də beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsidir. Məlumat üçün bildirim ki, Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq əlaqələrinin genişləndirilməsi üzrə 82 dostluq qrupu, 11 beynəlxalq parlament təşkilatında nümayəndə heyətləri və iki ikitərəfli komissiya fəaliyyət göstərir. Parlamentimiz dövlətimizin xarici siyasətinin həyata keçirilməsinə bundan sonra da dəstək verəcək, beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrin inkişafına, beynəlxalq təhlükəsizlik məsələlərinə diqqəti daha da artıracaq. Xüsusilə, parlament diplomatiyasının geniş imkanlarından faydalanaraq, möhtərəm Prezidentimizin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində apardığı ardıcıl və qətiyyətli siyasətə dəstək verəcəkdir. Həmçinin deputatlarımız seçicilərlə işin daha müasir və fəal əsaslarda qurulmasına, fəaliyyətlərində hesabatlılığa xüsusi diqqət yetirəcək, seçicilərlə sıx təmasda olacaqlar. Yəqin ki, müşahidə edirsiniz, demək olar ki, bütün deputatlarımız karantin rejiminə əməl etməklə, seçicilərlə onlayn görüşlər keçirir, müasir texnologiyalardan faydalanaraq onlarla ünsiyyət qururlar. Qarşıdakı dövrdə bu təmasların daha da sıxlaşacağını əminliklə söyləyə bilərik.

***- Sahibə xanım, son illərdə ölkəmizdə demək olar ki, həyatın bütün sahələrində genişmiqyaslı islahatlar reallaşdırılır. Bu islahatlar yeni mərhələdə ölkəmizin qarşısında duran çağırışlara müvəffəqiyyətlə uyğunlaşmaq, müasirləşmək məqsədlərinə xidmət edir. Siz bu islahatları necə qiymətləndirirsiniz?***

- Təbii ki, Azərbaycanda əldə olunan müsbət nəticələr, inkişaf göstəricilərinin davamlı olaraq yüksəlməsi, 2020-ci ilin ilk rübünün göstəriciləri, həyata keçirilən uğurlu, düşünülmüş siyasətin, aparılan çoxşaxəli islahatların gündəlik həyatda öz təsdiqini tapmasını əks etdirir. Bu, bütün sahələrdə böyük nailiyyətlərin qazanılması və dayanıqlı inkişaf üçün etibarlı zəmin yaradır. Xüsusilə, dərin islahatlar ili kimi xarakterizə olunan 2019-cu ildə reallaşdırılan genişmiqyaslı islahatlar ölkə və cəmiyyət həyatının bütün sahələrini əhatə etməklə respublikamızın qarşısında yeni inkişaf perspektivləri yaradıb. Ölkəmizdə makroiqtisadi sabitliyin qorunub saxlanılması, milli istehsalın və ixracın genişləndirilməsi, regional inkişaf proqramlarının uğurlu icrası və iqtisadi aktivlik coğrafiyasının regionlara doğru genişlənməsi, modern sənaye quruculuğu, qeyri-neft sektorunun sabit inkişafının təmin olunması kimi başlıca strateji vəzifələrin yerinə yetirilməsi Azərbaycanın iqtisadi həyatında çox ciddi nailiyyətlərin qazanılmasını şərtləndirmişdir. Bu gün qlobal iqtisadi sferada müşahidə olunan mənfi tendensiyalar və risklər fonunda Azərbaycan özünün iqtisadi məkanını mənfi təsirlərdən qoruya, bu cür meyillərə qarşı ciddi müqavimət göstərə bilir. Qlobal pandemiya dövründə ölkəmizdə ümumi daxili məhsul 1,1 faiz artıb, qeyri-neft sektorunda 3 faizdən çox artım olub, qeyri-neft sənaye sektorunda isə artım 23 faizdir. Bu da, ilk növbədə, onunla əlaqədardır ki, ölkəmizin iqtisadi sütunları möhkəmdir, kifayət qədər böyük iqtisadi imkanlara və resurslara malikdir. Azərbaycan heç bir beynəlxalq donor təşkilatdan asılı olmadan milli iqtisadiyyatını inkişaf etdirmək gücündədir. Bu da həyata keçirilən məqsədyönlü islahatların daha bir uğurlu göstəricisi kimi dəyərləndirilməlidir.

O da məlumdur ki, ölkəmizin iqtisadi imkanlarının genişlənməsi və iqtisadi qüdrətinin artması daha səmərəli və çoxşaxəli sosial müdafiə tədbirlərinin həyata keçirilməsinə imkan verir. Başqa sözlə desək, Prezident İlham Əliyevin ardıcıl və davamlı islahatlar kursu, qazanılan iqtisadi nailiyyətlər ölkə vətəndaşlarının rifahında hərtərəfli əksini tapır. Ötən il həyata keçirilən böyük sosial paket 4,2 milyon vətəndaşımızı əhatə etməklə, onların maddi-rifah halının əsaslı şəkildə yaxşılaşmasını təmin etdi. Əməkhaqqı və pensiyaların artırılması, aztəminatlı ailələrə yardımların edilməsi, qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin, müharibə veteranlarının həyat şəraitinin yaxşılaşdırılması və bu istiqamətdə atılan digər addımlar Azərbaycanda sosial siyasətin prioritet təşkil etdiyini və ölkə vətəndaşlarının maraqlarının, mənafeyinin hər şeydən üstün olduğunu göstərir. Cari ildə də sosial layihələrin davam etdirilməsi, bu sahədə heç bir proqramın ixtisar edilməməsi sübut edir ki, Azərbaycan dövləti yalnız öz gücünə, öz imkanlarına arxalanaraq genişmiqyaslı sosial proqramlar həyata keçirir, dövlətimizin və xalqımızın maraqlarına, mənafeyinə söykənən qərarlar qəbul edir.

Qeyd etməliyik ki, Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar uğurlu siyasi islahatlarla tamamlanır. Həm konseptual, həm də struktur xarakteri daşıyan bu islahatlar dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi, optimallaşdırılması, səmərəliliyinin artırılması, qərarların icrası mexanizminin müasir tələblərə uyğunlaşdırılması və yeni keyfiyyət mərhələsinə yüksəldilməsi məqsədlərinə xidmət edir. Eyni zamanda, Azərbaycanda demokratik təsisatların möhkəmləndirilməsi, siyasi plüralizmin və çoxpartiyalı demokratik siyasi sistemin inkişaf etdirilməsi, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə geniş imkanların yaradılması, dövlət və özəl qurumların fəaliyyətində şəffaflığın və hesabatlılığın təmin olunması, ictimai və sosial xidmətlər sahəsində institusional islahatların reallaşdırılması ilə yeni və ciddi keyfiyyət dəyişikliyinə nail olunması, həyata keçirilən kadr islahatları müasir mərhələdə Azərbaycanda praqmatik, düşünülmüş siyasi kursun reallaşdırılmasını təsdiq edir.

Beləliklə, Azərbaycanda sistemli islahatlar cari ildə də davam etdirilir, dövlət idarəetmə sistemi, icra və qanunverici hakimiyyəti və digər institusional sahələri əhatə edir. Möhtərəm Prezidentimizin müşavirədə bu mövzuya xüsusi diqqət ayırması, islahatların əhəmiyyətini və uğurlu nəticələrini diqqətə çatdırması göstərir ki, müasirləşməyə, yeniləşməyə, ölkəmizin daha da inkişafına xidmət edən bu siyasi kurs ardıcıldır və gələcək dövrlərdə də uğurla reallaşdırılacaq.

***- Milli Məclisin Aparatında və İşlər İdarəsində aparılan struktur islahatları barədə nə demək olar? Bu islahatları zəruri edən şərtlər nədən ibarətdir?***

- Təbii ki, Azərbaycanda həyata keçirilən və bir qədər əvvəl qeyd etdiyimiz çoxşaxəli islahatlar ölkə həyatının bütün sahələrində olduğu kimi, Azərbaycan Respublikası Milli Məclisinin də fəaliyyətinin yenidən qurulması, tərkibinin yenidən formalaşması zərurətini yaratmışdı. Buna görə də Yeni Azərbaycan Partiyasının təşəbbüsü ilə Milli Məclisin cənab Prezidentə müraciəti əsasında növbədənkənar parlament seçkiləri təyin olunmuş və keçirilmiş, Milli Məclis yeni tərkibdə formalaşmışdır. Milli Məclisin ilk iclasında isə qurumun rəhbərliyi tam tərkibdə dəyişmişdir. İlk dəfə olaraq, müxalifət partiyasını təmsil edən deputat Milli Məclisin Sədr müavini seçilmişdir. Həmçinin komitələrin sədr və sədr müavinləri sırasında müxalifət partiyalarının təmsilçiləri də yer almışdır. Möhtərəm Prezidentimizin də həmin müşavirədə qeyd etdiyi kimi, bu da çox önəmli addımdır və ilk növbədə, siyasi sistemin yeni konfiqurasiyasına yol açır. Bu, eyni zamanda, Milli Məclisdə gedən proseslərə də müsbət təsir göstərəcək. Siyasi dialoq, milli və dövlətçilik məsələləri ətrafında əməkdaşlıq mühitinin möhkəmlənməsi həm də Azərbaycanda çoxpartiyalı sistemin təkmilləşdirilməsinə, siyasi münasibətlərin sağlam zəmində qurulmasına xidmət edir. Eyni zamanda, bu addımlar sübut edir ki, Azərbaycan bundan sonra da demokratik inkişaf istiqamətində önəmli addımlar atacaq. Bunun üçün dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə çox ciddi, qətiyyətli siyasi iradə nümayiş etdirilir.

Milli Məclisin Aparatında və İşlər İdarəsində aparılan struktur islahatlarına gəldikdə isə burada da məqsədimiz istər parlament Aparatının, istərsə də İşlər İdarəsinin daha müasir əsasda yenidən qurulmasına, iş prosesində şəffaflığın təmin edilməsinə nail olmaqla daha çevik və daha səmərəli fəaliyyətin təşkil olunmasıdır. Hesab edirik ki, Azərbaycan xalqının, seçicilərin də gözləntiləri bu yöndədir.

***- Sahibə xanım, bu gün nəinki ölkəmizdə, eləcə də dünyada gündəmin əsas müzakirə mövzusu yeni növ koronavirusun sürətli yayılması və ona qarşı qlobal miqyasda görülən tədbirlərdir. Azərbaycanda bu epidemiyanın yayılmasının qarşısının alınması istiqamətində çox ciddi addımlar atılır. Siz ölkəmizdə epidemiyaya qarşı görülən işləri və onun nəticələrini necə qiymətləndirirsiniz?***

Ardı Səh. 5

# Sahibə Qafarova: "Milli Məclis Azərbaycan Prezidentinin qarşıya qoyduğu mühüm vəzifələri uğurla yerinə yetirməyə çalışacaq"

Əvvəli Səh. 5

- 2019-cu ilin sonlarında aşkara çıxan bu virusun yayılması ötən aylar ərzində nəinki səngiməyib, əksinə, daha geniş yayılaraq bu gün çox təhlükəli bir hal alıb. Dünya son on illiklərdə bəlkə də ilk dəfə belə böyük pandemiya ilə üzləşib. Bu virus hər bir dövləti, hər kəsi təhdid edir, heç bir sərhəd tanımır. Elə onun yayılma arealına və sürətinə nəzər yetirəndə hər şey aydın görünür. Hər gün yüzlərlə insanın bu virusdan həyatını itirməsi, yeni insanların bu xəstəliyə yoluxması, dövlətlərə dəyən hələ ki, miqyası müəyyənləşməyən böyük ziyan bir daha bu epidemiyanın yaratdığı təhlükənin nə dərəcədə təhlükəli və ciddi olduğunu təsəvvür etməyə imkan verir. Pandemiyanın nə vaxt qurtaracağı, necə inkişaf edəcəyi ilə bağlı heç bir proqnoz səsləndirmək mümkün deyil, eyni zamanda, bu virusa qarşı təyin olunmuş, sınaqdan keçirilmiş hər hansı tibbi metod, vaksin mövcud deyil. Bu da şübhəsiz ki, vəziyyəti daha da mürəkkəbləşdirir.

Azərbaycan koronavirusa qarşı mübarizədə dünyada öncül dövlətlərdən biridir. Ölkəmizdə bu virusun yayılmasının qarşısının alınması istiqamətində görülən tədbirlər örnək təşkil edir və uğur formulu kimi qəbul olunur. Bilirsiniz ki, Azərbaycan bu virusun dünyada hələ indiki qədər geniş yayılmadığı başlanğıc mərhələdə dərhal preventiv tədbirlər görməyə başladı, çevik və önləyici qərarlar qəbul etdi. İlk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq edən ölkəmiz təşkilatın tövsiyələrini nəzərə alaraq, eyni zamanda, tərtib olunan tədbirlər planını uğurla yerinə yetirərək çox operativ və çevik fəaliyyət göstərib. Qəbul olunan qərarlar situasiyaya tamamilə adekvat olub və uğurlu nəticələr verib. Prezident İlham Əliyevin Sərəncamı ilə cari ilin əvvəlində yaradılan Nazirlər Kabineti yanında Operativ Qərargah səmərəli fəaliyyət göstərib. Bütün təhsil müəssisələrində tədris prosesinin dayandırılması, ölkə ərazisində kütləvi tədbirlərin təxirə salınması, sosial təcridlə bağlı xüsusi rejim, daha sonra isə xüsusi karantin rejiminin və nəhayət, ölkədə hərəkət məhdudiyyətinin tətbiq olunması, nəticə etibarilə, Azərbaycanda bu virusun daha geniş yayılmasının qarşısının alınması istiqamətində uğurlu nəticələr verib. Azərbaycanda vəziyyət nəzarət altındadır. Əgər bu addımlar vaxtında atılmasaydı və düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejim tətbiq edilməsəydi, bu gün başqa təhlükəli vəziyyət yarana bilərdi. Azərbaycan dövlətinin əsas məqsədi ondan ibarətdir ki, insanlarımız bu xəstəliyə yoluxmasın, vətəndaşlarımızın sağlamlığı qorunsun və bu virusun yaratdığı fəsadlar aradan qaldırılsın.

Digər mühüm məqam pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirlərinin qarşısının alınması istiqamətində görülən tədbirlərlə əlaqədardır. Prezident İlham Əliyev müşavirədə bu mühüm məsələyə diqqət çəkdi, pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirlərinin qarşısının alınması istiqamətində görülən sistemli və koordinasiyalı işlərin xüsusi əhəmiyyətinə toxundu. Bu gün iqtisadi böhrandan əziyyət çəkən əksər ölkələr beynəlxalq maliyyə institutlarına, Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına borc üçün müraciət etdikləri halda Azərbaycan özünün güclü maliyyə imkanları hesabına xarici şokların təsirlərini aradan qaldırmağa qadir dövlətdir. Respublikamızın strateji valyuta ehtiyatları - güclü "təhlükəsizlik yastığı" makroiqtisadi sabitləşdirmə, iqtisadi fəallığın qorunub saxlanması və dayanıqlı iqtisadiyyatın inkişafı üçün möhkəm təminat yaradır. Hesab edirəm ki, Azərbaycan postpandemiya dövründə də atacağı addımlarla ölkəmizin sabit, dinamik inkişaf meyillərinin qorunmasına nail olacaqdır.

***- Azərbaycan Respublikası Milli Məclisi bu istiqamətdə hansı addımları atır?***

- Ölkəmizdə əhalinin sağlamlığının qorunması, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə görülən işlər çərçivəsində Milli Məclis tərəfindən də bir çox tədbirlər həyata keçirilir. Bu kontekstdə parlamentin komitə və komissiyalarının iclaslarının, Milli Məclis Aparatının və İşlər İdarəsinin toplantılarının keçirilməsi müvəqqəti dayandırılıb, idarəetmə yalnız telefon (selektor), mobil və internet rabitəsi vasitəsilə həyata keçirilir. Həmçinin Milli Məclis deputatlarının və əməkdaşlarının ezamiyyətləri və xarici ölkələrə səfərləri, parlamentdə vətəndaşların qəbullarının keçirilməsi müvəqqəti dayandırılıb. Milli Məclis deputatlarının köməkçiləri isə seçki dairələrində seçicilər ilə birbaşa təmasda olmadan onların müraciətlərini internet və telefon rabitəsi vasitəsilə qəbul edirlər.

Milli Məclisin inzibati binalarında insanlar arasında birbaşa təması məhdudlaşdırmaq, idarəetməni mobil və internet rabitəsi vasitəsilə həyata keçirmək məqsədilə parlament rəhbərliyi ilə komitə və komissiyaların rəhbərləri arasında, Milli Məclisin rəhbərliyi ilə parlamentdə təmsil olunan siyasi partiyaların sədrləri arasında, Milli Məclisin rəhbərliyi ilə yeni seçilən deputatlar arasında, habelə Milli Məclisin rəhbərliyi ilə parlament Aparatının və İşlər İdarəsinin məsul vəzifəli şəxsləri arasında internet üzərindən informasiya mübadiləsi qrupları yaradılıb. İlk dəfə olaraq Milli Məclisin rəhbərliyi ilə komitə sədrlərinin internet üzərindən videokonfransı keçirilib, növbəti plenar iclasın gündəliyi və cari məsələlər videokonfrans üsulu ilə müzakirə olunub.

Həmçinin Milli Məclisin komitə iclasları da videokonfrans vasitəsilə onlayn keçirilir. Milli Məclisin martın 30-da və aprelin 9-da keçirilən plenar iclasları koronavirusa qarşı mübarizə tədbirləri çərçivəsində müəyyənləşdirilmiş müvafiq qaydalara uyğun keçirilib.

Milli Məclisin iclasında ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində İnzibati Xətalar və Cinayət məcəllələrinə əhəmiyyətli dəyişikliklər edilib. Həmçinin "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanuna və "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Qanuna müvafiq dəyişikliklər edilib.

***- Çox təəssüf ki, ölkəmizdə kiçik bir siyasi marginal qrup var ki, onlar Azərbaycan hökumətinin koronavirus infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində gördüyü sosial təcrid tədbirlərini siyasiləşdirir, məsələni manipulyasiya edərək başqa cür təqdim etməyə çalışırlar. Siz bu cür cəhdlərlə bağlı nə düşünürsünüz?***

- Əlbəttə, indiki həssas və çətin məqamda, Azərbaycan dövlətinin bütün mümkün resursları bu virusun yayılmasının qarşısının alınmasına səfərbər etdiyi zamanda bu mövzuda siyasi manipulyasiya etmək, görülən səmərəli tədbirləri qeyri-adekvat təqdim etmək qətiyyən yolverilməz və qəbulolunmazdır. Bu cür cəhdlər hər hansı bir siyasi təşkilat və qrupa başucalığı gətirmir. Hesab edirəm ki, Azərbaycan xalqı, cəmiyyətimiz də məsələni məhz bu cür qiymətləndirir, ictimai rəyi yanıltmaq cəhdlərini qətiyyətlə pisləyir.

İndi internet dövrü, texnologiyalar, informasiya əsridir. İstənilən bir dövlətdə baş verən hər hansı hadisə çox qısa zamanda dünyanın hər yerində xəbərə çevrilir, cəmiyyət ondan xəbərdar olur. Bu gün koronavirus pandemiyasının dünyanın ən inkişaf etmiş dövlətlərində belə yaratdığı ağır fəsadlar hamıya bəllidir. Eyni zamanda, bu dövlətlərin həyata keçirdiyi təcrid və məhdudlaşdırma tədbirləri ilə bağlı hər birimiz məlumatlıyıq. Ona görə də insanları "feyk" bəyanatlarla, yalan iddialarla aldatmaq, çaşdırmaq mümkün deyil.

Hər bir vətəndaşımız əmin olsun ki, Azərbaycan dövləti bütün imkanlarını bu epidemiyanın yayılmasının qarşısının alınmasına və onun fəsadlarının aradan qaldırılmasına səfərbər edib. Bu təhlükəli virusa qarşı mübarizədə hər bir vətəndaşımızın üzərinə çox böyük məsuliyyət düşür. Ölkəmizdə görülən bütün işlər, qəbul edilmiş qərarlar bir məqsədi güdür ki, dövlətimiz və xalqımız bu ağır sınaqdan az itkilərlə çıxsın və vətəndaşlarımızı maksimum dərəcədə qoruya bilək. Hər birimiz vəziyyətin son dərəcə ciddi olduğunu anlamalı, vətəndaş məsuliyyəti nümayiş etdirərək sosial təcrid tədbirlərinə, karantin rejiminə əməl etməklə özümüzü və yaxınlarımızı qorumalı, bu pandemiyanın təsirlərinin və fəsadlarının daha qısa müddətdə aradan qaldırılmasına yardımçı olmalıyıq.

***- Ötən həftə Milli Məclisdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu ildə fəaliyyəti haqqında hesabatı müzakirə olundu və qəbul edildi. Bu hesabatla bağlı nə deyə bilərsiniz?***

- Əvvəla, onu deyim ki, ölkədə yaranmış epidemioloji vəziyyət səbəbindən və Nazirlər Kabinetinin təxirəsalınmaz problemlərlə məşğul olması ilə əlaqədar Azərbaycan Hökumətinin hesabatı videokonfrans şəklində təqdim olundu. Hesabatda Nazirlər Kabinetinin ötən ildə fəaliyyəti haqqında geniş və əhatəli məlumatlar öz əksini tapıb. Strukturu, zəngin analitik informasiyaları və geniş məzmunlu təhlilləri ilə diqqət çəkən hesabatın kifayət qədər peşəkarlıqla hazırlandığını söyləyə bilərik. 2019-cu ildə Azərbaycanın böyük uğurlar qazandığını nəzərə alsaq, o zaman bu nailiyyətlərin əldə olunmasında və möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən müəyyənləşdirilən vəzifələrin uğurlu icrasında təbii ki, Azərbaycan Hökumətinin də rolunu qeyd etməliyik. 2019-cu ildə ölkəmizdə davamlı inkişaf meyillərinin, makroiqtisadi sabitliyin və maliyyə dayanıqlılığının qorunması, milli iqtisadiyyatımızın rəqabətqabiliyyətliliyinin və ixracyönümlülüyünün təşviq olunması, müasir sənayeləşmə siyasətinin uğurla həyata keçirilməsi, aqrar sahənin, o cümlədən qeyri-neft sektorunun uğurlu inkişafının təmin olunması və bu kimi digər prioritetlərin həyata keçirilməsində, sosial müdafiə tədbirlərinin genişləndirilməsində Azərbaycan Hökumətinin müsbət rolu mütləq qeyd olunmalıdır. Ona görə də Milli Məclisdə hesabatın müsbət qiymətləndirilməsi tam obyektivdir və adekvatdır.

Digər tərəfdən, bilirsiniz ki, Azərbaycan Hökuməti ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərir, gərgin qrafiklə işləyir. Hökumətin və Operativ Qərargahın gördüyü tədbirlər ölkə ictimaiyyəti tərəfindən təqdir olunur və bu da düşünürəm ki, haqlı əsaslara malikdir.

***- Sahibə xanım, aprelin 10-da Bakıda Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşü keçirildi. Bu beynəlxalq tədbirdə dünyada və regionda cərəyan edən mühüm hadisələr müzakirə olundu. Siz, bu görüşün əhəmiyyəti barədə nə deyə bilərsiniz?***

- Bakıda Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi tarixi hadisə kimi qiymətləndirilməlidir. Türk Şurası dünya miqyasında ilk təşkilatdır ki, koronavirus pandemiyasına həsr olunmuş belə bir Zirvə görüşü keçirir. Bizim üçün çox sevindirici məqamlardan biri ondan ibarətdir ki, bu beynəlxalq tədbirin təşəbbüsü möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən irəli sürülüb və dərhal da üzv dövlətlərin rəhbərləri tərəfindən müsbət qarşılanıb. Bu, ilk növbədə, Azərbaycan dövlətinə, Prezident İlham Əliyevə, onun təşəbbüslərinə yüksək hörmət və etimadı göstərir. Eyni zamanda, təşkilat daxilində mövcud olan yüksək həmrəyliyin, ortaq mövqedən hərəkət etmək istəyinin də bariz nümunəsidir. Bu da təbiidir, çünki Türk Şurasına üzv ölkələri ortaq soykök, tarixi, mədəni dəyərlər birləşdirdiyi kimi, müasir mərhələdə də birgə mövqe ortaya qoymaq, xalqlarımızın inkişafı naminə ortaq tədbirlər həyata keçirmək üçün kifayət qədər ciddi əsaslar və imkanlar mövcuddur.

Türk Şurasına üzv ölkələr arasında münasibətlərin inkişafını şərtləndirən mühüm məqamlardan biri də bu gün sözügedən geosiyasi məkanda mövcud olan iqtisadi resurslardır, enerji resursları və kommunikasiya imkanlarıdır. Həyata keçirilən layihələr, üzv ölkələrin geniş iqtisadi potensialı və səyləri gələcək mərhələdə də əlaqələrin dinamikasına müsbət təsir göstərəcək. Mövcud imkanlardan daha geniş istifadə olunması, nəqliyyat daşımalarının artması, idxal-ixrac əməliyyatlarının genişləndirilməsi ölkələrimizin iqtisadiyyatına da böyük töhfələr verəcək.

Ümumiyyətlə, Türk Şurasının dostluq, qardaşlıq təməlləri üzərində qurulması təşkilatın daha uğurlu fəaliyyətinə geniş imkanlar yaradır. Hazırda Türk Şurasına üzv dövlətlər arasında səmərəli münasibətlər, əməkdaşlıq əlaqələri dinamik inkişaf tempinə malikdir. Bunun da nəticəsidir ki, Türk Şurasının dünyadakı mövqeləri və rolu getdikcə daha da artır. Xüsusilə, ölkəmizin sədrliyi dövründə təşkilatın beynəlxalq miqyasda rolunun gücləndirilməsi istiqamətində mühüm addımlar atılıb və bu sahədə görülən uğurlu işlərin nəticələri üzv dövlətlərin rəhbərləri tərəfindən də yüksək qiymətləndirilir.

Beləliklə, hesab edirik ki, Azərbaycan dövlətinin başçısının təşəbbüsü ilə keçirilən bu Zirvə görüşü məhsuldar olmaqla yanaşı, beynəlxalq ictimaiyyətə də mühüm mesajların ünvanlandığı vacib bir platformaya çevrildi.

***- Sahibə xanım, aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib. Sizinlə söhbətimizdə də müşavirə ilə bağlı müxtəlif məsələlərə toxundunuz. Yekunda bir daha müzakirə olunan məsələlər, qarşıda duran vəzifələr və prioritetlərlə bağlı sizin fikirlərinizi öyrənmək istərdik.***

- Artıq qeyd etdiyimiz kimi, müşavirədə Prezident İlham Əliyev 2020-ci ilin ilk rübündə ölkəmizdə, o cümlədən dünyada baş verən hadisələri, qarşıda duran məsələləri geniş təhlil etdi, ölkə həyatının bütün istiqamətləri üzrə əldə olunan nailiyyətləri, prioritet vəzifələri diqqətə çatdırdı. Hesab edirəm ki, bəşəriyyət üçün çox ağır keçən, ciddi sınaqlarla üzləşdiyimiz bir vaxtda, 2020-ci ilin ilk rübü ölkəmiz üçün uğurlu olub, həm iqtisadi, həm sosial, həm də digər sahələrdə mühüm nailiyyətlər əldə olunub. Ölkəmizin sabit inkişafını davam etdirməsi, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi bir daha Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş, məqsədyönlü siyasətin uğurlu, strateji nəticələr verdiyini, reallaşdırılan islahatlar Azərbaycanın qarşısında yeni inkişaf perspektivləri yaratdığını göstərir.

Dövlətimizin başçısı, həmçinin Azərbaycanın demokratik inkişafı, siyasi sistemin təkmilləşdirilməsi, islahatlar və digər mövzularda mühüm mesajlar verdi. Azərbaycan Respublikasının Milli Məclisi də dövlətimizin başçısının çıxışında yer alan mühüm məsələləri öz fəaliyyətində daim diqqət mərkəzində saxlayaraq ölkəmizdə siyasi sistemin təkmilləşdirilməsi, islahatların dərinləşməsi istiqamətində də üzərinə düşən vəzifələri yerinə yetirməyə çalışacaqdır.

***- Sahibə xanım, geniş müsahibəyə görə təşəkkür edirik.***

- Sağ olun!

# Dərs alınacaq nitq

***Cənab Prezidentimiz İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirə ölkəmizin mövcud vəziyyəti və gələcək inkişaf perspektivləri ilə bağlı bir sıra məsələləri göstərdi. Dövlət rəhbərinin geniş məzmun və dərin məna kəsb edən nitqində millət olaraq bu günümüz və gələcəyimiz üçün vacib olan bəzi dərslərə diqqəti yönəltmək istəyirəm.***



*Musa Qasımlı, millət vəkili, AMEA-nın müxbir üzvü, professor*

**Koronavirus pandemiyası və Azərbaycan nümunəsi**

Nitqində dövlət başçısı bir daha göstərdi ki, ölkəmiz 2020-ci ilə uğurla başlayıb və islahatların davam etdirilməsi yaxşı nəticələr verir. İlk iki ayda iqtisadi və sosial göstəricilər müsbət olsa da, mart ayındakı geriləmə koronavirus pandemisyasının yaratdığı şəraitlə bağlıdır. Bu vəziyyət dünyanın bir parçası olan Azərbaycana təsir etsə də, önləyici tədbirlər nəticəsində vəziyyət nəzarət altında saxlanılır. Heç kəsə sirr deyil ki, əgər addımlar vaxtında atılmasaydı, bu gün xəstələrin sayı on minlərlə ola bilərdi. Təsadüfi deyildir ki, bir sıra ölkələr koronavirus pandemiyasına qarşı mübarizədə Azərbaycan təcrübəsindən istifadə edirlər. Görülən tədbirlər bir daha təsdiq edir ki, Azərbaycan dövlətinin başlıca məqsədi insanların sağlamlığını və həyatını qorumaqdır. Buna görə Azərbaycan vətəndaşları cənab Prezidentə minnətdarlıq edirlər.

Pandemiyanın Azərbaycan iqtisadiyyatına mənfi təsiri etdiyi hamıya bəllidir. Beynəlxalq maliyyə qurumları bu pandemiyadan yarana biləcək böhranın 2008-2009-cu illərin böhranından daha da ağır olacağını bildirirlər. Artıq Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına 150-dən çox ölkə yardım üçün müraciət edib. Bu ölkələrin bir çoxunun davamlı müstəqil dövlətçilik tarixi bir neçə əsrə gedib çıxır. Azərbaycanın adının həmin siyahıda olmaması ölkəmizdə cənab Prezidentin liderliyində yürüdülən siyasətin düzgünlüyünü göstərir və bir daha təsdiq edir ki, uğurlu inkişaf üçün iqtisadiyyat dayanıqlı olmalıdır. Deməli, cənab Prezidentin nitqindən alınan başlıca dərs ondan ibarətdir ki, milləti öz ətrafında birləşdirib irəli aparan dövlət hakimiyyəti qüdrətli, idarəçilik çevik və səmərəli, iqtisadiyyat güclü olmalı, millətə və dövlətə müdrik, yüksək intellektual, dünya işlərini mükəmməl bilən dövlət xadimi rəhbərlik etməlidir. Necə ki, bunu cənab Prezidentimizin şəxsi nümunəsi təsdiq edir. Hakimiyyətə küçədən gəlmək olmaz. Millət güclü, dövlət isə qüdrətli olmalıdır.

**İnkişafımız demokratiya və islahatların davam etdirilməsi ilə bağlıdır**

Bir daha təsdiq olundu ki, ölkəmizin inkişafı demokratiya ilə bağlıdır və bundan sonra da demokratik inkişaf istiqamətində əhəmiyyətli addımlar atılacadır, bu məsələdə dövlət başçımızın güclü siyasi iradəsi vardır. Siyasi və iqtisadi islahatlar paralel aparıldıqda böyük uğurlar qazanmaq olur. Son illərdə ölkədə aparılan struktur islahatları davam etdiriləcəkdir. Prezident Administrasiyasında, Nazirlər Kabinetində, parlamentdə böyük kadr dəyişiklikləri edilib. Dövlət başçısının islahatlar xətti Azərbaycan vətəndaşları tərəfindən bəyənilir. Bu baxımdan parlament seçkiləri demokratik inkişaf istiqamətində atılmış növbəti addım oldu. Cəmiyyətdə fikir müxətlifliyinin olması normal haldır, tarixən həmişə olub, bu gün var, bundan sonra da olacaqdır. Lakin dövlətçilik maraqları hamını birləşdirməli, mövqe aydın və birmənalı olmalıdır. Gündüz bir, günorta başqa, axşam isə tamamilə fərqli və yayğın danışan, üzə gülüb arxada iş çevirərək özlərini siyasətçi sayanları millət riyakar və fürsətcil kimi tanıyır və qəbul etmir.

Nitqdə siyasi sistemin islahatları üçün dialoqun vacibliyi bir daha göstərildi. Heç kəsə sirr deyil ki, bizim gücümüz birliyimizdə olsa da, bu gün birliyimizi pozaraq milli-dövlət maraqlarına qarşı çıxanlar vardır. Dialoqdan imtina edənlər əslində iqtidara qarşı yox, dövlətimizə, millətimizə qarşı adət-ənənələrimizə yad olan üsullarla mübarizə aparırlar. Onların başlıca məqsədi bütün vasitələrdən istifadə edərək vəziyyəti gərginləşdirməkdir. Siyasi mübarizədə söyüş və təhqiri vasitə kimi seçən və xarici qüvvələrə bel bağlayan bu şəxslər hesab edirlər ki, ölkəmiz və millətimiz üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır. Belə mövqedə olanları millət yaxına buraxarmı? Cavab aydındır! Onların "narıncı inqilab" etmək, "ərəb baharı"nı ölkəmizə gərimək kimi niyyətləri unudulmayıb. İndi isə koronavirus pandemiyasının yaratdığı şəraitə sevinən bu qruplaşmanın mövqeyini millət görür və onları qəbul etmir. Həmin şəxslərin düçar olduğu isterika bununla bağlıdır. Deməli, cənab Prezidentin nitqindən alınan növbəti dərs ondan ibarətdir ki, cəmiyyətdə fərqli siyasi baxışların olmasına baxmayaraq, milli-dövlət maraqlarının qorunmasında vətəndaşlar, ictimai-siyasi təşkilatlar daim bir yerdə olmalı, onun əleyhinə olanları isə cəmiyyət özündən tamamilə təcrid etməlidir. Millətimizin və dövlətimizin bu günü və gələcəyi özümüzdən, milli birliyimizdən, cənab Prezidentin rəhbərliyi altında dövlətimizin ətrafında sıx birləşməyimizdən asılıdır.

**Dünyada Azərbaycana böyük maraq**

Cənab Prezident nitqində göstərdi ki, əməkdaşlıq üçün açıq olan Azərbaycana dünyada böyük maraq vardır, ölkəmizlə əməkdaşlıq etmək, sərmayə qoymaq istəyənlərin sayı artır. Bu, sadəcə maraq deyil, Prezident İlham Əliyevə və onun liderliyində Azərbaycan dövlətinin bu günü və gələcəyinə olan etimad və inamla bağlıdır. Deməli, nitqdən alınan növbəti dərs ondan ibarətdir ki, Azərbaycanın bu günü və gələcəyi təməli Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün dövlət başçısı tərəfindən yürüdülən siyasətlə bağlıdır.

**Ermənistana vurulan diplomatik-siyasi zərbə**

Nitqində cənab Prezident Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətləri Münxen Təhlükəsizlik Konfransında geniş auditoriyaya çatdırmasını xatırlatdı. Bir daha göstərdi ki, erməni təbliğatı saxtakarlıq, yalan, mifologiya üzərində qurulub, Azərbaycanın mövqeti isə tarixi sənədlərə, reallıqlara və beynəlxalq hüquqa əsaslanır.

Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi nəticəsində yaradılmış qondarma qurumda "keçirilmiş qondarma "prezident"in qondarma "seçkiləri"ni bütün aparıcı beynəlxalq təşkilatların tanımadığını bəyan etmələri, ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ, Fransa, Rusiyanın, ATƏT Parlament Assambleyası, Avropa İttifaqı, hətta Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və Türk Şurasının verdikləri açıqlamalar Ermənistan vurulan növbəti beynəlxalq diplomatik-siyasi zərbə oldu. Deməli, cənab Prezidentin nitqindən alınan daha bir dərs ondan ibarətdir ki, bizim hər birimiz Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinə dair həqiqətlərin dünyaya çatdırılmasında fəal olmalı, milli-dövlət maraqlarımızı qətiyyətlə qorumağı bacarmalıyıq.

**İkili standartların konkret təzahürü**

Cənab Prezident qondarma "seçkiləri" pisləyən beynəlxalq təşkilatların arasında 20 il ərzində Azərbaycanı qaralamaq, şər, böhtan atmaq, nüfuzdan salmaq üçün əlindən gələni əsirgəməyən Avropa Şurası, Avropa Şurası Parlament Assambleyasının adının olmadığına diqqəti yönəltdi. Birmənalı olaraq bildirdi ki, onların qəbul etdikləri qətnamə və qərarlar kağız parçasından başqa bir şey deyil. O təşkilatın Azərbaycanla bağlı məruzəçilərin susduqları vurğulandı. Açıq şəkildə bildirildi ki, kiçik bir hadisə baş verən kimi ölkəmiz haqqında yalan, böhtan uyduranlar bundan sonra Azərbaycan üzrə məruzəçi olmaq üçün mənəvi haqqlarını itiriblər. Çirkin bəyanatların arxasında heç də Azərbaycanda demokratiya, insan haqlarının qorunması məsələsi deyil, Azərbaycanı qaralamaq, şantaj etmək, nüfuzdan salmaq və maraqlarına zərbə vurmaq məqsədi dayanır. Deməli, cənab Prezidentin nitqindən çıxarılan dərslərdən biri ondan ibarətdir ki, millətimiz ona bədxah münasibət bəsləyənləri yaxından tanımalı və qətiyyətli olmalıdır.

**Dildə, fikirdə və işdə birlik**

Dövlət başçımızın nitqi türk dövlətləri ilə əlaqələrin bu gün və gələcəkdə də inkişaf etdirilməsinin vacibliyi baxımından əhəmiyyətli oldu. Məlum olduğu kimi, keçən ilin oktyabr ayında bu təşkilatda sədrliyi öz üzərinə götürən Azərbaycanın təşəbbüsü ilə ötən günlərdə cənab Prezidentin sədrliyi altında videokonfrans şəklində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə zirvə görüşü keçirildi. Türk Şurası hələlik dünyanın yeganə təşkilatıdır ki, dövlət başçıları səviyyəsində koronavirusla bağlı zirvə görüşü keçirib. Görüş çərçivəsində səslənən fikirlər, qarşılıqlı dəstək, həmrəylik, qəbul edilmiş yekun bəyannamə bir daha göstərdi ki, bu təşkilatın yaxşı gələcəyi vardır, ağır gündə türk dövlətləri və xalqları bir-birinin yanındadırlar. Bununla da cənab Prezident dildə, fikirdə və işdə birliyi belə çətin şəraitdə reallaşdıraraq bütün türk dövlətləri və xalqlarına örnək verdi. Deməli, cənab Prezidentin nitqindən alınan növbəti dərs ondan ibarətdir ki, türk dövlətləri və xalqları arasında sıx əməkdaşlıq, fəaliyyət birliyi zəruridir və davam etdirilməlidir.

# Jalə Əliyeva: Bu tarixi yazana "Əhsən, yaşasın!" yaraşır



***Tarix yaradılır, sonra yazılır...Tarix yaradan, həm də tarix yazır və yazdırır... Vərəqləyib geridə qoyduğumuz təqvim səhifələri də bu gün şanlı bir tarix olur, ən yeni tariximizin qürurlu şahidinə çevrilir...Bu şanlı tarixi yaradan və yazan var! Bu, cənab Prezident, bütün dünya azərbaycanlılarının lideri, Zati-aliləri İlham Heydər oğlu Əliyevdir... İlham Əliyev tək indi deyil, hakimiyyət Birincisi olduğu andan, 2003-cü ilin oktyabrında qazandığı ilk parlaq qələbəsi və zəfərindən bu yana tarix yarada-yarada, tarix yaza-yaza gəlir... Bu, həm də bir Salnamədir...***

SİA xəbər verir ki, bu fikirlər Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, filologiya elmləri doktoru, professor Jalə Əliyevanın "Bu tarixi yazana "Əhsən, yaşasın!" yaraşır" sərlövhəli məqaləsində yer alıb.

Məqalədə deyilir: "Dünyamızın başının üzərini qəfil və çox acımasızcasına kəsdirən koronavirus pandemiyasına qarşı ilk qətiyyətli, əzmli, birmənalı mübarizə aparan da məhz İlham Əliyev oldu, məhz Odur...Təhlükəni anında və məqamında hiss edən ölkə Prezidenti, çoxlarının, hətta, dünyaya "insanlıq və demokratiya dərsi" keçib, indi də insanlıq dramı yaşayan, təhlükəyə, bəlaya sanki gözləri baxa-baxa təslim olan aparıcı dövlətlərin və onların rəhbərlərinin "bu da keçib gedər, virusdur, ötəridir, baş qoşmağa dəyməz" kimi bir yanaşma sərgilədikləri və bunun bədəlini çox ağır ödədikləri bir dönəmdə cənab İlham Əliyev epidemiya ilə mübarizənin bütün yollarını arayıb-axtardı, bu bəlanın ölkəmizdə genişlənməməsi və təhlükəli hal almaması üçün bütün imkanları, bütün resursları səfərbər etdi. Nəticələr göz önündədir... İtkilər, yoluxmalar olsa da, sağalmalar, sağalanlar da gündən-günə artmaqda, yoxuşa deyil, enişə doğru gedilməkdədir. Bunlar da Azərbaycan dövlətinin, Azərbaycan hökumətinin birgə səylərinin, ən əsası Liderin iradəsinin, qətiyyətinin, fəhminin, duyumunun nəticəsidir... Bir neçə gün öncə Türk Şurasının liderlərini videokonfrans vasitəsilə bir araya gətirən cənab İlham Əliyev tarixi Zirvə görüşünə imza ataraq, İlk oldu!

Aprelin 14-də bunun davamını gətirərək, videokonfrans vasitəsilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan müşavirə keçirdi və yenə də İlk oldu! Açığını deyim ki, yaşadığımız günlərdə hansısa ölkədə hansısa dövlət, hökumət başçısının belə bir addım sərgilədiyinin şahidi olmamışıq...Olsaydı, mütləq ki, bunun mediadan, internet resurslarından görərdik, izləyərdik...

Azərbaycan Prezidentinin rəhbərliyi ilə aprelin 14-də çox yüksək bir səviyyədə müşavirə keçirildi, ölkədə ilin üç ayında görülən işlərin əhatəli, məzmunlu təhlili aparıldı... Uğurlar sadalandı, həllini gözləyən məsələlər qabardıldı, açıq və aydın bir şəkildə birmənalı olaraq göstəriş və tapşırıqlar verildi... Ən əsası isə, Azərbaycan insanı bir daha öz dövlətinə güvəndi, etibar etdi. Azərbaycanda insan amilinin, insan kapitalının hər şeydən irəli gəldiyi bir daha öz təsdiqini tapdı. Əhəmiyyətli bir mesaj bütün dünyanın gözləri önünə sərgiləndi: ağır situasiyalarda belə, dövlət üçün öz vətəndaşının sağlamlığının, əmin-amanlığının, rifahının təmin edilməsi ən başlıca hədəfdir! Dövlət Babanın əsl babalığı bir daha əyani əksini tapdı! Ölkə Prezidentinin bütün çıxışı boyu ona xas olan optimizm və praqmatizm özünü hər cümləsində göstərdi...Təmkin, soyuqqanlı yanaşma, ifadələrin, sözlərin dəqiq, birmənalı, anlaşılan olması və hədəfinə çatması da öz yerində... Sitat: "... Həyat yerində durmur, həyat davam edir və mən əminəm ki, 2020-ci il də çox dərin və geniş islahatlar ili olacaq, necə ki, 2019-cu ildə islahatların böyük hissəsi icra edilmişdir. Əslində, islahatların yeni mərhələsinə start 2018-ci ilin prezident seçkilərindən sonra verilmişdir. Mənim andiçmə mərasimindəki çıxışımda inkişafımızın və islahatların bütün istiqamətləri açıq-aydın göstərilmişdir. Ondan sonra biz bu islahatların ardıcıllıqla həyata keçirilməsi ilə məşğuluq və bu gün deyə bilərəm ki, ölkəmizdə daha yaxşı vəziyyət yaranmışdır - həm siyasi müstəvidə, iqtisadi sahədə, həm də sosial problemlərin həllində. Əlbəttə, əgər bu koronavirus pandemiyası müdaxilə etməsəydi, bizim uğurlarımız daha da böyükhəcmli olardı. Ancaq əminəm ki, biz bu ağır vəziyyətdən də çıxacağıq, iqtisadiyyatımız, iş yerləri bərpa ediləcək..." Gerçəkdən özünə, sözünə son dərəcədə güvənən və güvənilən bir Liderin sözləridir... Əsl Liderə də yaraşan elə budur...Bu günə qədər verdiyi sözlərə, vədlərə ən kiçik detallarına, bütün nöqtələrinə qədər əməl etmiş, hədəflərinə çatmış dövlət başçısının sözləri, nitqi məhz belə olmalıydı... Vətəninə, dövlətinə, xalqına, onun parlaq gələcəyinə güvən, inam və əminlik! Bunlar tarixdir, yaradılan və yazılan...İndi kimlərsə bu tarixi poza, dəyişdirə bilməz və bilməyəcək... Necə ki, illərdir çalışsalar da, cəhd göstərsələr də bacarmayıblar... Bacarmayacaqlar da... Çünki hər bir atılan addımın, cəhdin təməli, özülü, bünövrəsi olmalıdır. Özülü, bünövrəsi düzgün atılmayan bir bina, bir göydələn günlərin birində necə üzü aşağı gəlirsə, bərbad olursa, sağlam və təməli olmayan addımın da sonu uçurum, dağılma, iflasdır...Dünən də, bu gün də ölkəmizin uğurlarını həzm edə bilməyənlər bu həqiqəti və gerçəkliyi gec də olsa, anlasalar yaxşıdır... Bizlər üçün deyil, heç olmasa özləri üçün, rəzil, miskin duruma saldıqları ətrafları üçün... Onsuz da yel qayadan heç nə apara bilməyib və bundan sonra da apara bilməyəcək... Donos yazmaqla, şər atmaqla, Avropa Şurası və onun kimi "qlobus" sifətli təşkilatları ölkəmizə qarşı qaldırmaqla və ya elə onların özünün alətinə çevrilməklə, havasına oynamaqla nəsə qazanmaq mümkün deyil və heç mümkün də olmayacaq... Cənab Prezidentdən daha bir sitat: "...Azərbaycanla bağlı məruzəçilər var və bu məruzəçilər də susub, bir söz demirlər. Burada balaca bir hadisə baş verən kimi ölkəmiz haqqında ağızdolusu yalan, böhtan uydururlar. Nə üçün susublar? Bundan sonra onlar Azərbaycan üzrə məruzəçi olmaq mənəvi haqqını itiriblər. Azərbaycan xalqı hər şeyi yaxşı görür. Görür ki, bunların çirkin bəyanatlarının arxasında heç də Azərbaycanda demokratiya, insan haqlarının qorunması məsələsi dayanmır. Azərbaycanı qaralamaq, şantaj etmək, nüfuzdan salmaq, bəlləliklə, ölkəmizin maraqlarına zərbə vurmaq bu qurumun məqsədidir...". Hesab edirik ki, güzgüdə özünün və özlərinin necə göründüklərini bir daha görmək ela imkan və fürsətdir. Əlavə şərhə də, izahata da ehtiyac yoxdur... Bəli, tarix yaradılır və yazılır... Elə günlərimizdə olduğu kimi...Bu tarixi yaradan və yazan Oğula, İnsana, Şəxsiyyətə isə ancaq Əhsən, yaşasın yaraşır!".

## Karantin dövründə depressiyaya düşməmək üçün nə etməliyik?



“Ümumiyyətlə stress müasir dövrümüzün ayrılmaz hissəsinə çevrilib. Çünki stressə təkcə neqativ deyil, eləcə də pozitiv hadisələr də aiddir. Lakin son dövrdə pandemiya ilə bağlı gedən proseslər, karantin rejimi insanların daha da stresli olmasına səbəb olub”. Bu fikirləri SİA-ya açıqlamasında həkim nevropotoloq Leyla Şahbazova deyib.

O bildirib ki, qlobal dünya pandemiyası ilə əlaqədar olaraq panik atakla bağlı şikayətlər çoxalmaqdadır. Panik atakın diaqnoz olmadığını deyən mütəxəssis söyləyib ki, panik-atak mövcud vəziyyətə və ya olmayan bir hadisəyə verilən reaksiyadır.

***Karantin rejimində panik atakla necə mübarizə aparmaq olar?***

Həkimin sölərinə görə, panik atak keçirən insan ilk növbədə olduğu məkanı dəyişməlidir: “Eyvana çıxmaq və ya otağı dəyişmək müsbət təsir göstərə bilər. Çünki panik atak zamanı nəfəs daha da tezləşir və bu havasızlıq şəraitində vəziyyəti daha da gərginləşdirə bilir. Ona görə də pəncəri açıb 4 saniyə ərzində nəfərsimizi çəkib, bir sani müddətində saxlayıb və yenidən 4 saniyə ərzində buraxmaqla vəziyyəti yüngülləşdirə bilərik. Bunu nəfəsimiz tənzimləyənə qədər edə bilərik. O zaman daha müsbət nəticə görərik”.

***Bəs depressiya nədir və onun panik atakla necə ayırd edə bilərik?***

Mütəxəssis qeyd edib ki, panik atak 10 dəqiqədən 30 dəqiqə arasında davam edən vəziyyətdir: “Bu müddət ötəndən sonra insan normal halına qayıdır. Lakin depressiya zamanı insan daim bədbin fikirlərə qapılır, iştahadan kəsilir, yuxu pozğunluqları baş verir, heç nəyə maraq göstərmir. Belə vəziyyətlərdə mütəxəssis məsləhəti ilə müalicə almaq mütləqdir. Çünki vaxt uzandıqca bu artıq xarakterə çevrilir və belə olanda müalicəsi daha da çətinləşir. Müalicə zamanı hər kəs üçün fərqli təyin olunur”.

***Nailə Məhərrəmova***

## “AŞPA qondarma seçkilərə niyə münasibət bildirmir?”

“Aprelin 14-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə cənab Prezidentin Avropa Şurasının mövqeyi ilə bağlı səsləndirdiyi fikirlər bütün gerçəklikləri çılpaqlığı ilə əks etdirir”. Bunu SİA-ya politoloq İlqar Vəlizadə deyib.

“Axı necə ola bilər ki, Avropa Şurası Parlament Assambleyası Ermənistanın hərbi təcavüzü nəticəsində işğal edilmiş Azərbaycan ərazilərində süni şəkildə yaradılmış rejimdə keçirilən qondarma seçkilərə münasibət bildirmir? Ümumiyyətlə AŞPA-nın rəsmi borcudur ki, bu cür qanunsuz əməllərə və yaxud da tədbirlərə reaksiya versin. Bu onların vəzifə borcudur. Bunların həmin məsələlərə reaksiya verməməsi, həmin bu vəzifə borcunun pozulması deməkdir. Niyə? Çünki biz digər ölkələrdə onların işğal olunmuş ərazilərində qanunsuz hansısa bir rejim eynilə bu cür tədbirlər keçirəndə daha sərt reaksiyaların şahidi oluruq. Amma bizdə məsələlərə heç bir reaksiya olmur. Sanki AŞPA-nın nümayəndələri, rəsmiləri bu halı görmür. Bu yanaşma təəssüflər olsun ki, işğalçı rejimə müəyyən dəstək verir. Buna rəğmən hansısa bir addımlar atılmır. Əlbəttə ki, Azərbaycan tərəfi buna sadə gözlə yanaşa bilməz. Bizim tələbimiz odur ki, əgər biz sözügedən qurumun üzvüyüksə, bu qurum heç olmasa öz vəzifə borcunu yerinə yetirməlidir. Cənab Prezident İlham Əliyevin reaksiyası əsas olaraq buna söykənir”-deyə, İ.Vəlizadə fikrini tamamlayıb.

***Ceyhun Rasimoğlu***

# Müasir milli çağırışlar, Prezident İlham Əliyevin nitqi və radikal müxalifətin antimilli fəaliyyəti

***2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunmuş videokonfrans şəklində müşavirədə Azərbaycan Prezidenti bir sıra mühüm məsələlərə toxundu. Əlbəttə ki, ilk növbədə birinci rübdə görülən işlərin hesabatı, sosial-iqtisadi sferada əldə edilmiş nailiyyətlər, həyata keçirilmiş siyasət və bunun nəticələri müzakirə edildi və eyni zamanda, bu gün bütün dünyada aktual olan koronavirus təhlükəsinə və təhdidlərinə qarşı ölkəmizdə həyata keçirilən tədbirlər haqqında geniş, ətraflı fikirlər səsləndirildi.***



*Hikmət BABAOĞLU*
*“Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı*

### Azərbaycan koronavirus təhlükəsinə qarşı effektiv tədbirlər görən ölkələr sırasındadır

Hazırkı mərhələdə koronavirus pandemiyasına qarşı mübarizədə Azərbaycan önləyici tədbirlər almaqla çox nümunəvi bir təcrübə əldə etməyi bacarıb, dünyanın bir sıra inkişaf etmiş ölkələri ilə müqayisədə Azərbaycanda daha ciddi uğurlar əldə olunub və bu günə qədər Azərbaycan bu virusun təhlükəli həddə yayılmasının və total xarakter almasının qarşısını ala bilib. Nəzərə alsaq ki, koronavirus təkcə pandemiya hadisəsi deyil, eyni zamanda, hər bir ölkənin sosial-iqtisadi, mənəvi, humanitar sferalarına dərindən təsir edən bir faktora çevrilib, o zaman, əlbəttə ki, bir sıra ölkələr ən müxtəlif çağırışlarla üz-üzə qalmalı olurlar. Çünki uzun müddət sosial fərdlərin aktiv fəaliyyətinin qarşısının alınması, eyni zamanda, iqtisadi münasibətlərə, milli iqtisadiyyata da təsir göstərir və bu məhdudiyyətlər iqtisadi fəaliyyəti də məhdudlaşdırır. Azərbaycan Prezidenti qeyd etdi ki, biz əvvəlcədən bilirdik ki, sosial təcrid və sosial məhdudlaşdırmalar iqtisadi fəaliyyəti də məhdudlaşdıracaqdır, ancaq bizim seçimimiz Azərbaycan vətəndaşlarının sağlamlığından yana oldu və biz ilk növbədə vətəndaşların təhlükəsizliyini təmin etmək barədə düşündük, çünki iqtisadi tərəqqi və yaxud tənəzzül bir-birini əvəz edən hadisələrə çevrilə bilər, hər hansı bir iqtisadi uğura bir qədər daha sonra çatmaq olar, amma ilk növbədə, vətəndaşların sağlamlığının, onların təhlükəsizliyinin təmin olunması Azərbaycan dövlətinin ümdə vəzifələrindən biridir. Mən düşünürəm ki, elə Azərbaycanda həyata keçirilən sosial siyasətin əsasında da duran mənəvi-siyasi paradiqmalar buradan qaynaqlanır və bu, bir daha Azərbaycan Prezidentinin Öz vətəndaşlarına xidmət etməsi, Azərbaycan dövlətinin öz vətəndaşlarını himayə etməsinin çox bariz göstəricisidir.

### Bu gün alınan qərarlar postkorona mərhələsində sosial-iqtisadi inkişafı təmin etməyə hesablanıb

Əlbəttə ki, bu məsələ Azərbaycan Prezidentinin çıxışının yalnız bir hissəsini təşkil edirdi. Prezident İlham Əliyevin çıxışında toxunulan digər kompleks məsələlər də var idi ki, bunların hər biri birbirindən daha əhəmiyyətli idi. Çünki hazırkı mürəkkəb tarixi mərhələdə bu gün alınan düzgün qərarlar bundan sonrakı dövrdə də milli maraqları təmin edəcək xüsusi vasitə qismində çıxış edir. Ona görə də Prezident Öz nitqində postkorona erasına hazırlıqla bağlı çox mühüm tədbirlərdən, xüsusi sosial-iqtisadi paketlərdən, onların icra olunmasından danışdı və eyni zamanda, postkorona iqtisadiyyatımızın yenidən canlanması, iqtisadi yüksəlişi ilə bağlı da Azərbaycan hökumətinin, dövlətimizin qəbul etdiyi qərarlar barədə geniş məlumat verdi. Bəlli oldu ki, məhz bundan sonrakı mərhələdə iqtisadi münasibətlərin öz axarına düşməsi üçün artıq Azərbaycan yenə də önləyici tədbirlər almaqdadır ki, biz bunun nəticəsini də postkorona mərhələsində görəcəyik

### Avropa Şurası, qondarma rejimin “seçki” oyunu, insan hüquqları və azadlıqlarının istismar edilməsi

Azərbaycan Prezidentinin çıxışında bir sıra məsələlərə kompleks yanaşıldı və bunların bir qismi də həm ölkəmizin xarici siyasəti, həm də daxili siyasəti ilə bağlı idi. Bu mənada, Prezident İlham Əliyev mart ayının 31-də Dağlıq Qarabağda qondarma rejimin keçirməyə cəhd etdiyi saxta seçkilərdən və işğalçı Ermənistanın bunu himayə etməsindən danışaraq bir sıra mühüm məsələlərə toxundu və Münhen Təhlükəsizlik Konfransının panel iclasında təşkil olunan debatda bir daha Azərbaycanın necə ciddi bir diplomatik uğura imza atmasını, tarixi faktları bütün dünya ictimaiyyətinin, beynəlxalq təşkilatların diqqətinə çatdırmaqla bu davada Ermənistanın nə qədər haqsız olmasını göstərmiş oldu. Şübhəsiz ki, 31 mart qondarma seçkilərindən sonra dünyanın ən aparıcı beynəlxalq təşkilatları, hərbi-siyasi bloklar, Avropa İttifaqı, Qoşulmama Hərəkatına üzv ölkələr, İslam Əməkdaşlıq Təşkilatı, Türk Şurası və bu kimi digər çoxlu beynəlxalq təşkilatlar və ayrı-ayrı dövlətlər “seçki”nin nəticələrini tanımadıqlarını bəyan etdilər. Bu, əlbəttə, Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri, rolu, nüfuzu və onun həyata keçirdiyi siyasi diplomatiya strategiyası ilə bağlı olan məsələlərdir ki, Azərbaycan bu dəstəyi əldə edə bilib. Və şübhəsiz ki, bu dəstək sonrakı mərhələdə Azərbaycanın atacağı qətiyyətli addımlar zamanı hadisələr hərbi-siyasi müstəviyə transfer olunanda Azərbaycana ciddi beynəlxalq dəstək kimi özünü büruzə verəcək. Ancaq bu kontekstdə hazırkı mərhələdə milli həmrəyliyimizin təmin olunması, milli enerji və gücün milli maraqlar ətrafında səfərbər olunması olduqca vacib bir məsələdir. Ona görə də ölkəmizdə iqtisadi islahatlarla bərabər siyasi islahatların həyata keçirilməsi Azərbaycanda çox mühüm siyasi dialoq mərhələsini yaradıb. Yeni siyasi dialoq mərhələsi, şübhəsiz ki, siyasi mövqeyindən, siyasi dünyagörüşündən asılı olmayaraq ölkəmizin bütün daxili siyasi aktorlarının enerjisinin məhz milli maraqlar ətrafında səfərbər edilməsinə hesablanıb ki, bu da sonrakı mərhələdə Azərbaycanın milli gücünün məhz ərazi bütövlüyümüzün həlli məsələlərinə yönəldilməsi baxımından olduqca əhəmiyyətlidir. Bu mənada, Azərbaycan Prezidenti iki mühüm məsələyə toxundu. Onlardan biri ölkəmizdə həyata keçirilən islahatların bütün sferaları əhatə etməsi, ikincisi isə bəzi beynəlxalq təşkilatların digərlərindən fərqli olaraq Dağlıq Qarabağda həyata keçirilən qondarma seçki oyununa loyal münasibəti idi. Bu kontekstdə Prezident tamamilə haqlı olaraq Avropa Şurası və Avropa Şurası Parlament Assableyasının adını çəkdi və insan hüquqlarının qorunması üzrə ixtisaslaşmış bu beynəlxalq təşkilatın, çox təəssüf ki, insan hüquqlarının müxtəlif şəkildə pozulmasına göz yummasını tənqid etdi.

# Müasir milli çağırışlar, Prezident İlham Əliyevin nitqi və radikal müxalifətin antimilli fəaliyyəti

Doğrudan da, Avropa Şurası əgər insan hüquq və azadlıqlarına, beynəlxalq hüququn tələblərinin yerinə yetirilməsinə diqqət yetirən bir təşkilatdırsa və bunu öz fəaliyyət prinsipinin əsaslarından biri kimi müəyyən edibsə, o zaman ilk növbədə Ermənistanın işğalı nəticəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və ətrafındakı 7 rayondan məcburi köçkün düşmüş vətəndaşların hüquqlarını yada salmalı və bu kontenkstdə qondarma "Dağlıq Qarabağ" rejiminin işğalçı ölkəylə birlikdə Azərbaycanın ərazilərində həyata keçirdiyi seçki şousunun qəbuledilməz olduğunu bildirməli idi. Çox təəssüf ki, biz Avropa Şurasından belə addım görmədik. Bu, əslində, eyni zamanda, Avropa Şurası və onun Parlament Assambleyasının qlobal imperializmin struktur vahidi kimi ona xidmət edən bir təşkilat olduğunu göstərdi və bu təşkilat üçün, əslində, insan hüquqlarının, qlobal və universal dəyərlərin sonuncu planda olduğunu bir daha ortaya qoymuş oldu. Bu mənada, Azərbaycan Prezidenti İlham Əliyevin Avropa Şurası haqqında söylədiyi fikirlər, əslində, həm də Azərbaycan vətəndaşlarının bu beynəlxalq təşkilata olan münasibətinin də göstərici oldu. Çünki hər bir Azərbaycan vətəndaşı hesab edir ki, Avropa Şurası Azərbaycanın haqlı və ədalətli mövqeyini dilə gətirməkdən daha çox bu və ya digər formada manipulyasiya edərək ölkəmizi siyasi şantaj etməklə məşğuldur ki, bu da işğalçı Ermənistanın və qondarma rejimin maraqlarına xidmət etmək deməkdir .

## Radikal müxalifət xarici antiazərbaycançı mərkəzlərin təzyiq rıçağı rolunda...

Əslində, ölkədaxili siyasi proseslərin qiymətləndirilməsində də Avropa Şurası eyni qərəzli mövqeyi nümayiş etdirir və bu ənənə halını alıb. Avropa Şurasındakı bəzi ermənipərəst dairələr ölkəmizdəki radikal marginalları milli müstəqil iradəmizə qarşı təzyiq mexanizmi kimi istifadə etməyə çalışırlar. Bəzən radikal marginallarla Ermənistanın bir çox məsələlərə sinxron münasibəti də elə buradan qaynaqlanır. Hazırda karantin rejimi şəraitində yaşayırıq və bunun özünəməxsus zəruri tələbləri, qaydaları var ki, onlara əməl etmək hər birimizin vətəndaşlıq borcudur. Çünki məqsəd milli təhlükəsizliyimizi təmin etmək, vətəndaşlarımızın koronovirusa yoluxmasının qarşısını almaqdır. İndiki vəziyyətə bu cür tədbirlərə qarşı çıxmaq və onu siyasiləşdirmək sadəcə milli maraqlarımıza qarşı düşmənçilikdir. Çox təəssüf ki, radikal müxalifət bunu da edir.

## "Milli şura" vətəndaşlarımızı karantin rejiminin əleyhinə hüquqpozmalara təşviq etməklə ictimai maraqlarımıza zərbə vurur

"Milli şura" adlandırılan qurum Azərbaycanda konkret cinayət əməlləri törədən şəxslərin, yaxud karantin rejiminin tələblərini pozanların müvafiq qaydada cəzalandırılmasını siyasiləşdirməyə çalışır. Bununla bağlı qondarma hüquq müdafiəçisi təşkilatlara əsassız məlumatlar verir və ayrı-ayrı beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının Azərbaycan üzrə məruzəçisinin hesabatına qeyri-obyektiv informasiyalar təqdim edir. Bu, antimilli dairələrin maraqlarına xidmət etməkdir. Ona görə də radikal müxalifətin fəaliyyəti heç bir halda xalqımızın milli maraqları və ictimai maraqlarımızla izah edilən bir hadisə deyil. Azərbaycan Prezidentinin nitqində də diqqətin həm də bu məqama çəkilməsi radikal müxalifətin dağıdıcı fəaliyyətinin cəmiyyətimiz və onun demokratik institutları tərəfindən nəzərə alınması və belə dağıdıcı fəaliyyətin kütləvi qınanılmasına hesablanmışdı. Çünki Azərbaycanda formalaşan konstruktiv müxalifət, parlament müxalifəti kimi klassik müxalifətdən kənarda fəaliyyət göstərən bir qrup marginal siyasiləşmiş təşkilatlanmalar hər fürsətdə dövlətimizin maraqlarına zərbə vurmağa çalışırlar. Onların daim ifşa olunması, şübhəsiz ki, siyasi sistemimizin daxili aktorlarının ən mühüm vəzifələrindən biridir. Bu hadisənin özü də iki kontekstdə qiymətləndirilməli və düzgün izah edilməlidir. Bunlardan biri radikal qruplaşmaların daim xaricdən direktivlər almaqla siyasi sistemimizə dağıdıcı mesajlar ötürməsi və onu zəiflətməsidir ki, bu, nəticə etibarilə, Azərbaycanı sevməyən mərkəzlərlə radikal qruplaşmaların birgə fəaliyyəti kimi özünü büruzə verir. İkincisi isə, hakimiyyətə qarşı qeyri-obyektiv tənqidi mövqe tutmaqla ölkə daxilində siyasi təzuiq rıçaqları formalaşdıraraq xarici antiazərbaycançı mərkəzlərin maraqlarını təmin etmək və yaxud hakimiyyəti milli maraqlarımız əleyhinə güzəştə məcburetmə məntiqidir. Amma əlbəttə ki, Azərbaycan güclü ölkədir, heç vaxt milli maraqlardan kənarda addımlar atmayıb və atmayacaqdır. Çox təəssüf, ki hazırda marginal qruplar müasir texnologiyaların, internet resurslarının verdiyi innovativ vasitələrdən də istifadə etməklə Azərbaycanda öz tərəfdarlarının sayını artırmağa çalışırlar ki, bu da mümkün olmur.

## Rəngli inqilablara, "ərəb baharı"na həvəslənənlərin uğursuzluğu xalqımızın böyük uğuru oldu

Azərbaycanda radikal müxalifət daim milli maraqlarımıza zərbə vurub. Ona görə də Azərbaycan xalqı tərəfindən onlar siyasi sistemin autsayderləri kimi müəyyənləşdiriliblər. Azərbaycan Prezidenti Öz nitqində qeyd etdi ki, 2005-ci ildə postsovet məkanında inqilablar baş verən zaman narıncı inqilablar dalğasına qoşularaq Azərbaycanda qeyri-qanuni yollarla, Azərbaycan xalqının iradəsinin əleyhinə olaraq hakimiyyətə gəlməyə cəhd göstərdilər. Qızılgül, qərənfil, narıncı jiletlilər inqilablarına qoşulmağa çalışdılar, amma bunların hər biri uğursuz oldu. Çünki bəlkə, hansısa ölkədə hakimiyyət dəyişikliyini zəruri edən səbəblər var idi, ancaq Azərbaycanda xalq-iqtidar birliyi olduğu üçün bu, aktual deyildi. İkincisi, 2011-ci ildə "ərəb baharı" adlandırılan və sonradan, əslində, mahiyyətinin nə olduğu üzə çıxan bu proseslərdə Azərbaycandakı müxalifət yenə xalqımızın maraqlarının əleyhinə təşkilatlanmağa başladı və Azərbaycanı ərəb ölkələrindəki xaosa sürükləməyə cəhd göstərdilər. Ancaq bu da alınmadı. Və bunun alınmamasının əsl səbəbi yenə Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət və bu siyasətin xalq tərəfindən dəstəklənməsi idi.

## Azərbaycanda həyata keçirilən islahatlar, ümummilli siyasi dialoq və radikal müxalifətin imtina seçimi

İndi isə bu proseslər arxada qalıb və hazırda Azərbaycan Prezidenti tərəfindən siyasi, iqtisadi islahatlar prosesi başladılıb və artıq xeyli vaxtdır ki, davam edir, olduqca uğurlu nəticələr əldə etməyimizə gətirib çıxarır. Azərbaycan Prezidenti qeyd etdi ki, 2019-cu il dərin islahatlar ili idi, amma 2020-ci il də islahatlar ili kimi xarakterizə olunacaqdır. Bu dialoqun yaradılmasında ilk və qətiyyətli genişmiqyaslı addımlar Azərbaycan hakimiyyəti tərəfindən atıldı. Yeni parlamentin yeni əsaslarda demokratik şəkildə formalaşması və parlamentarizm tariximizdə ilk dəfə olaraq parlamentdə də müxalifət təmsilçilərinin həm parlamentin ali rəhbərliyində, həm komitə sədri və komitə sədri müavinləri səviyyəsində təmsilçiliyinin olması, əslində, dialoqun real siyasi müstəvidə baş tutmasının nəticəsi kimi qiymətləndirilə bilər. Ancaq bu, məsələnin bir tərəfidir və genişmiqyaslı ümummilli maraqların tələb etdiyi siyasi formatı əldə etməyə mane olan müəyyən qüvvələr var ki, bunlar bütövlükdə dialoqdan imtina edən radikallar kimi tanınırlar. Ölkəmizdə həyata keçirilən islahatların nəticəsidir ki, Prezident Administrasiyasında siyasi partiyalarla iş aparmaq üçün xüsusi şöbə yaradılıb və bu şöbə Azərbaycan Prezidentinin siyasi iradəsi olan dialoq çağırışlarını bütün siyasi partiya və təşkilatlanmaların diqqətinə çatdırmağı bacarıb. Bu günə qədər ölkəmizdə tanınan və tanınmayan, rəsmi-hüquqi qeydiyyatdan keçən və keçməyən, siyasi partiya olmağa iddia edən bütün qruplaşmaların rəhbərləri ilə əlaqə yaradılıb. İndiki tarixi mərhələdə milli və qlobal çağırışlar kontekstində ümummilli dialoqun vacib şərt olduğu onların diqqətinə çatdırılıb. Böyük ölçüdə siyasi sistemimizin daxili aktorları arasında dialoq əhval-ruhiyyəsi bərpa olunsa da, dialoqa uzanan əli tutumaqdan imtina edən qruplaşmalara rast gəlmək mümkündür. Bu, əslində, bir daha milli maraqlara xidmət etməkdən imtina deməkdir. Siyasət, hər şeydən əvvəl, uzlaşma sənətidir. Maraqları ümummilli kontekstdə koordinasiya etməyi bacarmaq sənətidir. Ölkədəki problemləri hakimiyyətin diqqətinə təqdim etməklə onun həllinə nail olmaq sənətidir. Və nəhayət, şübhəsiz ki, müxalifətçiliyin məqsədlərindən biri də hakimiyyətə gəlmək və hakimiyyətdə təmsil olunmaqdır. Biz bunun hakimiyyətin müxtəlif qollarında təmsilçiliyinin şahidiyik. Qeyd etdiyimiz kimi, demokratik şəraitdə xalqımız tərəfindən lazımi qədər dəstək ala bilən siyasi partiyalar artıq hakimiyyətin ali qanunverici qolunda təmsil olunmaq imkanları əldə ediblər. Çox təəssüf ki, "Milli şura" adlandırılan radikal qruplaşma, onunla koordinasiyalı şəkildə fəaliyyət göstərən və sosial şəbəkələrdən Azərbaycan xalqının maraqlarına zərbə vurmağa çalışan ayrı-ayrı sosial şəbəkə iştirakçılarının fəaliyyəti heç bir halda Azərbaycanın maraqlarına uyğun deyil və bu, siyasi mədəniyyətimizə və siyasi sistemimizə qeyri-əxlaqi və dağıdıcı tendensiyalar gətirir, Azərbaycan xalqının ümumi siyasi mədəniyyətinə zərbə vurur ki, bu da növbəti proseslərdə, şübhəsiz ki siyasi sistemimizin keyfiyyətinə mənfi təsir göstərir. Ona görə də indiki çətin dövrdə, milli həmrəyliyin zəruri şərt kimi çıxış etdiyi bir vaxtda radikalların bu cür fəaliyyətdən imtina etməməsi bir daha onların ifşası və onların Azərbaycan xalqı tərəfindən qəbul edilməməsi deməkdir. Ancaq hər halda nəzərə almaq lazımdır ki, bu gün bəşəriyyət ağır pandemiya mərhələsindən keçməklə postkorona erasına hazırlaşır.

## Dialoqdan imtina milli maraqlardan imtina deməkdir

Bundan sonra yaranacaq yeni beynəlxalq nizam özünə güvənən güclü millətlərin və xalqların mühüm rol oynadığı nizam olacaq. Ona görə də indiki şəraitdə milli maraqları və həmrəyliyi gözardı edən radikal qruplaşmalar dialoqdan imtina etməklə, əslində, Azərbaycanın milli maraqlarına xidmət etməkdən imtina etmiş olurlar. Bu isə ictimai müşahidənin diqqətindən yayınmır və növbəti siyasi proseslərdə radikalların özlərinin əleyhinə çevrilir. Azərbaycan Prezidenti qeyd etdi ki, əlbəttə, hakimiyyətdə müxalifətdə olmaq olar, amma dövlətə və xalqa müxalifətdə olmaq olmaz. Təəssüfləndirici haldır ki, radikal müxalifət məhz Azərbaycan dövlətinə, Azərbaycan xalqının maraqlarına qarşı müxalifətçilik edir. Ancaq dialoq mühiti və əhval-ruhiyyəsi indiki tarixi mərhələdə milli maraqlarımızı vahid siyasi müstəvidə səmərəli müdafiə edə bilmək üçün bir fürsətdir və hər bir Azərbaycan vətəndaşı siyasi mövqeyindən, radikal və yaxud qeyri-radikal düşüncələrindən asılı olmayaraq bu fürsəti layiqincə dəyərləndirməyi bacarmalıdır. Şübhəsiz ki, indiki qlobal çağırışlar kontekstində növbəti tarixi mərləhədə Azərbaycan daha güclü, daha böyük beynəlxalq nüfuza malik bir ölkəyə çevriləcək və bunun üçün hər birimiz əlimizdən gələni etməliyik. Kim bu yolda milli maraqlarımıza xidmət edən hazırkı səmərəli siyasi kursu dəstəkləyəcəksə, onu Azərbaycan xalqı ilə bərabər daha böyük uğurlar, kim hələ də xaricdən ianələr, direktivlər almaqla dağıdıcı fəaliyyətlə məşğuldursa, onları da tarixin arxivi gözləyir.

# “Artan iqtisadi gücümüz daha uğurlu gələcəyimizin təminatıdır”



**_Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş daxili və xarici siyasəti ilə həm inkişaf edir, iqtisadi sistemini təkmilləşdirir, həm də regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Hazırda Azərbaycan dövlətinin həyata keçirdiyi layihələr, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bununla yanaşı, Azərbaycan dünyada sülhyaratma prosesində fəal iştirak edir, səmərəli təklif və təşəbbüslərlə çıxış edir, öz praktik fəaliyyəti ilə sülhün və təhlükəsizliyin möhkəmlənməsinə dəyərli töhfələr verir. SİA bu və digər məsələlərlə bağlı Milli Məclisin deputatı Aqil Məmmədovun müsahibəsini təqdim edir._**

***-Aqil müəllim, dünyada koronavirusun dünyada tüğyan etdiyi bir zamanda Azərbaycanda sosial-iqtisadi layihələrin icrası tam sürəti ilə davam edir, o cümlədən, Prezident İlham Əliyev cənablarının regional və beynəlxalq siyasi arenada irəli sürdüyü təşəbbüsləri yüksək qiymətləndirilir. Siz bu faktorları necə şərh edərdiniz?***

- Bildiyimiz kimi, bir neçə gün əvvəl Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və Sədrliyi ilə video-konfrans şəklində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fövqəladə Zirvə görüşü keçirildi. Türk Şurası bu günə qədər dünyanın yeganə təşkilatıdır ki, dövlət başçıları səviyyəsində koronavirusla bağlı Zirvə görüşü keçirdi. Görüş çərçivəsində səslənən fikirlər, qarşılıqlı dəstək, həmrəylik və qəbul edilmiş yekun Bəyannamə, bu təşkilatın çox möhkəm əsaslarının olduğunu, həmçinin Azərbaycanın bu təşəbbüslə vaxtında və yerində addım atdığını bir daha sübut etdi. Xüsusilə, bir daha sübut olundu ki, dövlətimizin başçısı liderlik xarizması ilə həm də dünyada söz sahibi olaraq, bir sıra örnək addımlarını atmaqdadır.

***- Bildiyimiz kimi, cənab Prezident İlham Əliyev 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan video-konfrans müşavirə də keçirdi. Siz bu konfransda vurğulanan fikirləri və ölkə lideri tərəfindən qəbul edilən qərarlar barədə nə deyə bilərdiniz?***

-Cənab Prezident İlham Əliyev ilk olaraq Azərbaycanda islahatların davam etdirilməsinin müsbət nəticələrə gətirib çıxardığını, eləcə də, iqtisadi və sosial göstəricilərimizin müsbət dinamika ilə artdığını vurğulamaqla yanaşı, həm də sosial layihələrin dayandırılmayacağını, ilin sonuna qədər həyata keçiriləcəyini vurğuladı. Bu amil də belə qənaətə gəlməyə zəmin yaradır ki, cənab İlham Əliyevin siyasətinin əsasında vətəndaş faktoru və sosial təminat reallıqları dayanır.

Digər tərəfdən, dövlət başçısı tərəfdən aparılan uğurlu xarici və daxili siyasətinin nəticəsində bu gün Azərbaycan iqtisadiyyatı dünyada çoxşaxəli iqtisadiyyat kimi tanınmış, bu siyasət nəticəsində bütün sahələrin, o cümlədən iqtisadiyyatın təməlində Azərbaycanın milli maraqlarının hər zaman üstün tutulduğu bir daha sübut olunmuşdur.

Prezident İlham Əliyevin şəxsi təşəbbüsü ilə qeyri-neft sektorunun inkişaf etdirilməsi, daxili bazarın idxaldan asılılığının aradan qaldırılması, sahibkarlığın inkişafına şərait yaradılması bu çətin günlərdə öz sözünü uğurla deməkdədir.

***-Pandemiya dövründə ölkəmizin bu çətin vəziyyətdən uğurla çıxmasını necə izah edərdiniz?***

-Pandemiya bir daha göstərdi ki, uğurlu inkişaf üçün iqtisadiyyat dayanıqlı olmalıdır. Məhz cənab Prezident tərəfdən əvvəlcədən düzgün istiqamətdə atılmış addımlar, görülmüş qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət nəticəsində Azərbaycan vəziyyəti nəzarət altında saxlamağı bacardı. Düşünülmüş strategiya çərçivəsində məhdudlaşdırıcı rejim mərhələli yollarla sərtləşdirildi, nəticədə bu gün xəstələrin sayı aşağı səviyyəyə doğru enməkdədir. Bu reallıq bir daha sübut edir ki, Azərbaycan dövləti üçün əsas məsələ vətəndaşların sağlamlığı, insanlarımızın həyatıdır.

Daha bir amil ondan ibarətdir ki, aparıcı beynəlxalq maliyyə qurumlarının məlumatına görə pandemiyanın ölkələrin iqtisadiyyatına vurduğu mənfi təsirin aradan qaldırılması məqsədilə Beynəlxalq Valyuta Fonduna və Dünya Bankına 150-dən çox ölkə yardım üçün müraciətlər edilib. Əvvəlcədən atılmış düşünülmüş addımlar nəticəsində ölkəmizin adı yardım almaq üçün müraciət edən ölkələrin siyahıda yoxdur. Bu, Azərbaycanın regional gücdən beynəlxalq gücə çevrilməsinin bariz sübutudur. Hətta ölkəmiz koronavirusdan ağır əziyyətlər çəkən dövlətlərə müxtəlif yardımlar etməkdədir.

Azərbaycan xalqının sağlamlığının mühafizəsinə gəlincə isə, deyə bilərəm ki, görülən tədbirlərdən ən başlıcası karantin rejimində əhalinin maddi vəziyyətinin təmin edilməsi, maddi imkanları məhdud olan vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılmasının diqqət mərkəzində saxlanılması olub.

Artıq pandemiyaya görə öz işini müvəqqəti olaraq itirmiş 600 mindən çox insanın dövlət tərəfindən dəstəklə təmin olunması işləri aparılır. Eyni zamanda, işsizlərlə bağlı problemlər öz həllini tapır. Dövlət Məşğulluq Xidməti orqanlarında işsiz kimi qeydiyyata alınan şəxslərə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmələrin verilməsi prosesi uğurla davam etdirilir. Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İş Mərkəzi vasitəsi ilə cari ilin aprel-may ayları üzrə əlavə 50 min ödənişli ictimai iş yerinin yaradılması da nəzərdə tutulmuşdur. Bu istiqamətdə işlər davam etdirilir.

Bu çox sevindirici gerçəkliklərdir. Çünki heç bir ölkədə qısa zaman kəsiyində belə bir addım atılmayıb. Dünyanı bürüyən koronovirus infeksiyası ilə mübarizədə Azərbaycan dövləti ən effektli tədbirlər görən ölkələr sırasındadır.

***- Prezident İlham Əliyevin həmrəylik çağırışları çərçivəsində xalqın dəstəyini necə qiymətləndirirsiniz və karantin rejimi barədə hansı fikirlərinizi bölüşərdiniz?***

Məlumdur ki, Azərbaycan dövləti təcili olaraq profilaktiki tədbirlər həyata keçirib, tez bir zamanda Nazirlər Kabineti yanında operativ qərargah yaradılıb. Ölkə ərazisində yoluxmanın qarşısını almaq məqsədi ilə karantin rejimi elan edilib, sabit və ardıcıl məlumatlandırma, maarifləndirmə tədbirləri uğurla davam etdirilir. Ölkəmizdə elektron hökumətin formalaşdırılması, vətəndaşlarla dövlət məmurları arasında virtual əlaqənin yaradılması, distant təhsilə keçid və dövlət müəssisələrində çalışanların əmək haqlarının ödənilməsi şərti ilə məzuniyyətə buraxılması və bu kimi bir sıra tədbirlər əhalinin yoluxmasının qarşısını minimuma endirib. Artıq sağalanların da sayı sürətlə artır ki, bu da bizi çox sevindirir. Bu xüsusdan çıxış edərək əminliklə deyə bilərəm ki, cənab Prezident İlham Əliyevin birbaşa nəzarəti və təşəbbüskarlığı ilə atılan addımları bütün cəmiyyəti virusa qarşı həmrəy şəkildə birləşdirib.

Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili üçün hər birində 200 çarpayı olan modul tipli 6 xəstəxananın quraşdırılması məqsədilə vəsait ayrıldı. Bundan başqa, xaricdə yaşayan və xaricdə olan Azərbaycan vətəndaşlarının ölkəmizə gətirilməsi istiqamətində atılan operativ addımlar nəticəsində böyük nailiyyətlər əldə olundu, minlərlə Azərbaycan vətəndaşı xarici ölkələrdən təxliyə edildi.

Bu gün də, pandemiyanın zərərlərini minimuma endirmək üçün Azərbaycan hakimiyyəti tərəfindən əhəmiyyətli və sistemli tədbirlər davam etdirilir.

Lakin o da diqqətdən qaçmamalıdır ki, Azərbaycan dünyanı vahiməyə salmış pandemiyaya qarşı savaşı demək olar ki, öz vəsaiti hesabına aparır. Azərbaycan yeni bir nümunə yaradır və artıq bütün dünya ölkəmizin nümunəsini öyrənməyə çalışır.

***-Bəzi özlərini müxalifət adlandıran qaragüruhçu, marginal dairələr Azərbaycan dövlətinin xalqın sağlamlığı, rifahı üçün atdığı addımlara qarşı iftiralar atırlar. Belə davranışlara qarşı fikirlərinizi necə şərh edəərdiniz?***

-Təəssüflər olsun ki, Azərbaycanın inkişafını gözü götürməyən qüvvələr var. Onlar bundan qıcıqlanırlar, bizim inkişafımıza mane olurlar, hər cəhdlə bu inkişafın qarşısını almaq üçün tədbirlər görməyə çalışır, dayanmadan canfəşanlıq göstərərək, qarayaxma kampaniyaları ilə Azərbaycanın nüfuzunu ləkələməyə çalışırlar.

Lakin onlar unudurlar ki, bu cür kampaniyalar hər dəfə olduğu kimi yenə də özünü doğrultmayacaq. Çünki, bu qüvvələr istəsə də Azərbaycanın hər gün daha da artan nüfuzuna xələl gətirə bilməyəcəklər.

Bu baxımdan, hesab edirəm ki, məhz bütün bunlara görə, bizim hər birimiz dövlət tərəfindən görülən tədbirlərin vacibliyini birmənalı olaraq dərk etməli, aparılan siyasətin nəticəsi olaraq iqtisadi gücümüz nəticəsində bu bəladan minimum itkiylə çıxaraq öz vətəndaş məsuliyyətimizi nümayiş etdirməliyik.

-Müsahibənizə görə çox sağ olun.

**_Rəfiqə HÜSEYNOVA_**

# “Haqq-ədalətdən danışan AŞPA 1 milyon azərbaycanlı qaçqından da danışsın”



**_“Ermənistanın Dağlıq Qarabağda yaratdığı qondarma rejimin siyasi tamaşaları davam edir. Daölıq Qarabağda yaşayan ermənilərin təşkil etdiyi hər hansı siyasi tədbir Azərbaycanla razılaşdırılaraq, Azərbaycanın da iştirakı ilə həyata keçirilərsə legitim sayıla bilər. Çünki Dağlıq Qarabağ Azərbaycan ərazisidir”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Azər Badamov deyib._**

Onun sözlərinə görə, Ermənistanın Dağlıq Qarabağda hər hansı bir siyasi prosesə daxil olmaq hüququ yoxdur: “Keçirilən saxta seçkilərin birinci turu dünyanın heç bir ölkəsi və təşkilatı tərəfindən tanınmayıb və bu məsələ barədə mənfi reaksiyaları açıq şəkildə səsləndirilib. Qondarma seçkilərin ikinci turunun da taleyinin məhz bu cür olacağı əvvəldən bəlli idi. Dünyanın heç bir ölkəsi tərəfindən tanınmayan qondarma rejimdə siyasi seçkilərin keçirilməsi qəbuledilməzdir. Lakin Ermənistanın dəstəyi ilə bu işlər həyata keçirilir və dünya da bu məsələyə susqunluqla yanaşır. Ona görə ki, dünyada ikili standartlar var”.

A.Badamov vurğulayıb ki, xüsusilə AŞPA bu məsələyə düzgün və lazımı reaksiya vermir: “AŞPA Azərbaycana hər zaman qərəzli yanaşan bir təşkilatdır. Hər zaman insan haqqlarından, ədalətdən danışan bir qurum olduğu halda, Dağlıq Qarabağda azərbaycanlıların pozulan hüquqlarından heç vaxt danışmırlar. Nə az, nə çox 1 milyon azərbaycanlının hüquqları artıq 30 ilə yaxındır ki, pozulur. Sonda isə düşünürəm ki, bu seçkilərin keçirilməsi bir daha onu göstərir ki, Ermənistanı və DQR separaçı rejimi sadə əhali yox, sadəcə qurduqları siyasi oyunlar maraqlandırır”.

**_Aysel Məmmədova_**

## Sağalmış xəstələrin plazması COVID-19-lu xəstələrə küçürüləcək



**_Bu gün ölkəmizdə bütün müalicə üsullarını tətbiq etmək imkanlarımız var. Milli Hematologiya və Transfuziologiya Mərkəzinin direktoru Valeh Hüseynov tərəfindən ayrılmış xüsusi komanda ilə layihə hazırlanıb və TƏBİB-ə təqdim olunub. Biz bunu Səhiyyə Nazirliyi ilə də geniş müzakirə edəcəyik”. SİA xəbər verir ki, bunu TƏBİB-in İdarə Heyətinin rəhbəri Ramin Bayramlı deyib._**

O bildirib ki, Səhiyyə Nazirliyinin müvafiq şurasının təsdiqi ilə artıq növbəti həftələrdən COVID-19 xəstəliyindən sağalmış şəxsləri Milli Hematologiya və Transfuziologiya Mərkəzinə dəvət edəcəyik və sağalmış şəxslərdən alınan plazmalardan istifadə etmək üzrə işlər həyata keçirəcəyik: ”Sağalan insanların plazmasında anti-cisimlər olur. COVID-19-la mübarizə üçün anti-cisimlər yetəri qədər olsa, yalnız ağır xəstələrə köçürə biləcəyik”. Ramin Bayramlı qeyd edib ki, plazması götürülən şəxsdə başqa xəstəliklərin olmamasına da diqqət yetiriləcək. Əgər, şəxsdə başqa xəstəlik yoxdursa bu zaman onun plazmasından istifadə ediləcək.

**_Nigar Məmmədova_**

# Baş Prokurorluğu işə qəbulla bağlı müsabiqə elan edir



***X**alqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş inkişaf strategiyasını yeni mərhələdə müvəffəqiyyətlə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş ardıcıl və sistemli tədbirlər nəticəsində Azərbaycan gəncliyinin hərtərəfli inkişafı istiqamətində mühüm addımlar atılmış, gənclərin ictimai həyatın bütün sahələrində fəal iştirakına geniş imkanlar yaradılmışdır. Ölkədə reallaşdırılan dövlət gənclər siyasətinin prokurorluq orqanlarında da davam etdirilməklə, ali hüquq təhsilli gənclərin müsabiqə yolu ilə işə qəbulu prokurorluğun kadr tərkibinin yüksək nəzəri biliyə və mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc hüquqşünaslar hesabına yenidən formalaşmasını təmin etmişdir.***

Azərbaycan Respublikası Prezidentinin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnamənin tələblərinə müvafiq olaraq, 2002-ci ildən başlayaraq keçirilən 20 müsabiqə nəticəsində prokurorluq işçilərinin 70 faizini təşkil edən 902 gənc hüquqşünasın işə qəbul edilməsi aparılan uğurlu islahatların məntiqi təzahürüdür.

Qeyd edilən tədbirlərin davamı olaraq prokurorluq orqanlarına qulluğa qəbul olunmaq arzusunda olan şəxslər üçün Baş Prokurorluq tərəfindən 80 ştat vahidi üzrə növbəti müsabiqə elan edilir.

Prokurorluğa işə qəbul olunmaq istəyən hər bir namizədin bilik səviyyəsinin, ümumi dünyagörüşünün, prokuror və ya müstəntiq vəzifəsinə yararlılığı və layiqliliyinin müəyyən edilməsi məqsədi ilə tam aşkarlıq şəraitində, şəffaf üsullarla və beynəlxalq tələblərə uyğun ixtisas imtahanları (test və yazılı imtahanlar) və müsahibədən ibarət müsabiqə təşkil ediləcəkdir. Müsabiqədə bərabər nəticələr əldə etmiş şəxslərdən xarici dilləri bilənlərə üstünlük veriləcəkdir.

Müsabiqədə iştirak etmək üçün sənədlərini təqdim etmək istəyənlərin nəzərinə çatdırılır ki, namizədlərin ali hüquq təhsili Azərbaycan Respublikası ərazisində müvafiq qaydada tanınan diplomla təsdiq edilməli, onlar dövlət dilini sərbəst bilməli və seçkilərdə iştirak etmək hüququna malik olmalıdır. Prokurorluğa işə 30 yaşınadək olan Azərbaycan Respublikası vətəndaşları qəbul olunurlar.

“Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən prokurorluğa işə qəbul edilmirlər:

- ikili vətəndaşlığı olan şəxslər;
- digər dövlətlər qarşısında öhdəlikləri olanlar;
- din xadimləri;
- məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, tibbi rəyə əsasən fiziki və ya əqli qüsurlarına görə prokuror və ya prokurorluğun müstəntiqi vəzifələrini yerinə yetirməyə qadir olmayan şəxslər;
- alkoqolizm, narkomaniya, toksikomaniya və digər ağır xəstəliklərə tutulmuş şəxslər (bu barədə həkim rəyi olduqda);
- əvvəllər məhkum olunmuş, habelə bəraətverici əsaslar olmadan barəsində cinayət işinin icraatına xitam verilmiş şəxslər;
- əvvəllər yol verdiyi kobud nöqsanlara və ya prokuror və müstəntiq adı ilə bir araya sığmayan hərəkətlərə görə vəzifədən azad edilmiş şəxslər;
- qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş (qanuni əsaslarla müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olanlar və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilənlər istisna olmaqla) çağırış yaşlı vətəndaşlar.

Hazırda koronavirus epidemiyasının yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması, müvafiq qurumların fəaliyyətinin tənzimlənməsi məqsədilə Nazirlər Kabineti tərəfindən xüsusi rejimdə iş normalarına dair verilmiş təlimata uyğun olaraq prokurorluq orqanlarına qulluğa qəbul olunmaq arzusunda olan şəxslərin sənədlərinin elektron qaydada həyata keçirilməsi nəzərdə tutulur və bu məqsədlə sənədlərin qəbulu üçün prosedurlar tam sadələşdirilmişdir.

Belə ki, müsabiqədə iştirak etmək arzusunda olan və qanunvericiliklə müəyyən olunmuş tələblərə cavab verən namizədlər 15 aprel 2020-ci il tarixdən etibarən müvafiq ərizə və aşağıdakı sənədlərin foto-surətini Baş Prokurorluğun kadr@prosecutor.gov.az ünvanına elektron formatda göndərməklə müsabiqənin ilkin mərhələsi olan test imtahanında iştirak edə bilərlər:

- şəxsiyyət vəsiqəsinin surəti;
- ali təhsil haqqında (hüquqşünaslıq və ya beynəlxalq hüquq ixtisası üzrə) diplomun (xarici dövlətdə təhsil almış namizədlər həmçinin diplomun Azərbaycan Respublikası ərazisində tanınması barədə şəhadətnamənin) surəti;
- kadrlar uçotuna dair anket; yüklə
- tərcümeyi-hal; yüklə
- 4x6 sm ölçüdə 4 ədəd ağ fonda rəngli fotoşəkil.

Tərcümeyi-halda əks olunacaq məlumatlar barədə: yüklə

Sənədlərin qəbulu barədə elektron poçt ünvanı vasitəsilə müraciət edən şəxslərə məlumat veriləcəkdir.

Test imtahanının yekunlarına görə 70 və daha artıq bal toplayan namizədlər yazılı imtahana buraxılacaqdır.

Test imtahanının vaxtı, yeri, imtahan suallarının hazırlanmasında istifadə edilmiş normativ sənədlərin siyahısı və müsabiqə ilə bağlı digər məsələlər barədə kütləvi informasiya vasitələrində, o cümlədən Baş Prokurorluğun internet saytında (www.prokurorluq.gov.az, www.genprosecutor.gov.az) məlumat veriləcəkdir.

Əlavə məlumat almaq üçün 437-28-56, 492-74-32, 492-06-82, 492-62-23 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar.

## Fransada koronavirusdan bir gündə 1500 insan ölüb



Sərt tədbirlərə baxmayaraq, Fransada 24 saat ərzində koronavirusdan demək olar ki, 1,5 min insan ölüb. SİA xarici mətbuata istinadən xəbər verir ki, aviadaşıyıcı gəmi də yeni bir yoluxma ocağına çevrilib. Bu gəminin göyərtəsində təxminən 700 nəfər virusa yoluxmuş insan var. “Şarl De Qoll” təcili olaraq limana çağrılıb və bütün dənizçilər iki həftə təcridxanaya göndərilib. İtaliyada pandemiya qurbanlarının ümumi sayı 21 mini keçib. Belçikada virusun yayılması təhlükəsi səbəbindən məktəblərdə imtahanlar ləğv edilib və karantin may ayına qədər uzadılıb. Çexiya və Almaniya, əksinə, rejimi zəifləndirlər.

*İnam Hacıyev*

## Moskvada 9 may paradı təxirə salınır?

Rusiyada 9 may Qələbə günü münasibətilə paradın keçirilməsi təxirə salınıb. SİA-nın məlumatına görə, paradın yeni tarixi ilə bağlı qərar bu həftə ərzində veriləcək. Bəzi mənbələrin məlumatına əsasən, qərarı Rusiya Prezidenti Vladimir Putin açıqlaya bilər. Qeyd olunur ki, İkinci Dünya Müharibəsində faşizm üzərində qələbənin 75 illiyinə həsr olunmuş parad koronavirus pandemiyası ilə əlaqədar təxirə salınır. Paradın bu ilin ikinci yarısında keçirilməsi gözlənilir.



## İranda koronavirusdan ölənlərin sayı 4869-a çatdı

İran dövlət televiziyasının məlumatına görə, Səhiyyə Nazirliyinin sözçüsü Kiyanuş Cihanpur Covid-19 səbəbiylə son 24 saatda 92 adamın həyatını itirdiyini açıqlayıb. SİA bunu xarici mətbuata istinadən xəbər verir. Beləliklə, Cihanpur ümumi itkinin 4869-a qədər artdığını və yoluxmaların sayının artaraq 77995-ə çatdığını bildirib. Xəstələrin 3594-nün vəziyyətinin ağır olduğunu bildirən Cihanpur 52229 adamın müalicələrinin tamamlandıqdan sonra xəstəxanadan təxliyə edildiyini bildirib. Xatırladaq ki, Covid-19 İranda ilk dəfə fevralın 19-da Qum şəhərində aşkarlandığı açıqlanıb.



## İngiltərə və Fransa yeni bir epidemiya mərkəzinə çevrilir



İngiltərə və Fransa yeni növ koronavirusun yayılmasında Avropadakı yeni mərkəzlərə çevriliblər. Gecikmiş tədbirlər görən İngiltərənin virusun qitədə ən ağır zərər vuracağı ölkə olacağı gözlənilir. SİA bunu xarici KİV-lərə istinadən xəbər verir. Son 10 gündə ölüm hallarının sürətlə artdığı İngiltərədə itkilərin sayının bir müddət daha yüksək olacağı gözlənilir. Fövqəlade Hallar Elmi Məsləhət Qrupunun üzvü Jeremy Farrar aprelin 12-də BBC-yə açıqlamasında Britaniyanın itkilərin sayına görə İtaliya və İspaniyaya keçə biləcəyini söyləyib.

ABŞ-da yerləşən Səhiyyə Ölçmə və Qiymətləndirmə İnstitutu (IHME) da İngiltərədə aprel ayının əvvəlində 60 mindən çox insanın epidemiya səbəbindən ölə biləcəyini təxmin edib. Dünyada Covid-19 səbəbiylə ən çox itki verən 4-cü ölkə olan Fransada həyatını itirənlərin sayı 17 min 167 nəfər, yoluxma sayı isə 147 min 863 nəfərə çatıb.

Fransada 30 Mart - 6 Aprel arasında gündəlik ölüm 418 ilə 833 arasında artıb. Aprelin 7-də qeydə alınan 1 min 427 ölümlə Fransa Avropada bir gündə qeydə alınan ən yüksək ölüm sayına çatıb. Bu günə qədər ölkədə 6 min 457 nəfər müalicə olunur. Fransa Covid-19-dan evində ölənlərin sayını ölkənin ümumi rəqəmlərinə daxil etmir. Yaxın günlərdə açıqlanacağı gözlənilən bu sayla, ümumi itkinin sürətlə artacağı təxmin edilir.

# Müxalifətin yaramaz siması növbəti dəfə faş olur



***Azərbaycanda aparılan düzgün, məqsədyönlü siyasət nəticəsində ölkəmiz nəinki regionda, ümumiyyətlə dünyada ən inkişaf etmiş dövlətlərdən birinə çevrilib. Bunu nufuzlu beynəlxalq maliyyə inistutlarıda yaydıqları hesabatları ilə təsdiqləyirlər. Hazırda Azərbaycan investisiyaların yönəldilməsində ən cəlbedici ölkə olmaqla yanaşı həm də, özü güclü sərmayədar ölkəyə çevrilib.***

Son 16 ildə respublikamızın beynəlxalq iqtisadi-siyasi əlaqələri daha da güclənib, qarşılıqlı səmərəli əməkdaşlıq, dünya iqtisadiyyatına öz milli mənafeyni qorumaqla inteqrasiya olunması ölkəmizə böyük siyasi və iqtisadi dividentlər gətirib. Təbii ki, bu cür iqtisadi, siyasi uğurlar Azərbaycan vətəndaşlarının daha təhlükəsiz və sosial cəhətdən daha geniş şəkildə təmin olunması deməkdir. Amma hər kəsə bəlli olan faktda mövcuddur ki, istər xaricdə istərsə də, daxildə Azərbaycanın əldə etdiyi nailiyyətlərinə kögə salmağa cəhdlər göstərənlər var. Bunlara missal olaraq özlərini və yaxınlarını xarici xüsusi xidmət orqanlarına yem edən ölkəmizin milli və dövlətçilik maraqlarına qarşı təxribatlar törətməyə cəhd etmələrini göstərmək olar. Demək olar ki, hər fürsətdə AXCP sədri Əli Kəriml, Müsavat başqanı Arif Hacılı, "Milli Şura"nın rəhbəri Cəmil Həsənli və digərlər sosial şəbəkələrin imkanlarından bəhrələnməklə, Azərbaycanın dünyada artan nufuauna xələl gətirmək üçün dəridən-qabıqdan çıxırlar. Nədi-nədi xarici ağaları onları dövlətinə qarşı şərvə böhrtan kampaniyasına görə, qəpik-quruş verəcəklər.

### Cəmiyyət onları satqın və xəyanətkarlar kimi tanıyıb, nifrət bəsləyir

Ümumiyyətlə, bəlli olan fakt ondan ibarətdir ki, dağıdıcı müxalif simasızlar siyasətə gəlir mənbəyi kimi baxırlar. Sədrlik kreslosunu da, məhz buna görə tərk etmək istəmirlər. Ə.Kərimli, A.Hacılı və C.Həsənli xarici qüvvələrlə iş birliyinə getməklə, xarici qüvvələrdən və ya fondlardan maliyyə yardımları alıblar. Ancaq siyasətdə uğur qazana bilməyiblər. Çünki müxalifət başbilənlərindən birinin, bir zaman dediyi kimi, "pul qoyub, pul götürmək olar, amma pul qoyub, siyasətdə uğur əldə etmək olmaz". Belələri haqqında çoxsaylı faktlar-sübutlar göstərmək olar. AXCP sədr Ə.Kərimlinin, Müsavat başqanı A.Hacılının, Müsavatın keçmiş başqanı İ.Qəmbərin siyasi fəaliyyətlərinə nəzər yetirdikdə, hər şeyin məlum olar. Bu məxluqlar az qala yaşlarının yarısını siyasətə qurban versələr də, qazandıqları ancaq xalqın ittihamı, tənqid və iradları olub. Ağa qara demək, xalqın sevincinə, hakimiyyətin apardığı uğurlu siyasətə qərəzli yanaşmaq onların həyat tərzidir. Cəmiyyətin bütün təqbəqləri onları satqın və xəyanətkarlar kimi tanıyıb, nifrət bəsləyirlər. Dünyanı koronavirus epidemiyası ağuşuna aldığı bir vaxtda da dağıdıcı müxalif ümsürlər öz bəd əməllərindən əl çəkmir, infeksiyaya qarşı sərt mübarizə tədbirləri nəticəsində əldə olunan müsbət nəticələrə kölgə salama çalışırlar. Prezident İlham Əliyev "Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları belə də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq" deyə bildirməklə dağıdıcı müxalifətin əsl yaramaz simasını cəmiyyətə növbəti dəfə çatdırıb. Bəlli olduğu kimi aprelin 14-də Prezident İlham Əliyevin Sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirə keçirilib. Müşavirədə Azərbaycan Prezidenti İlham Əliyev bir sıra məsələrdən danışıb və dağıdıcı müxalifəti milli və dövlətçilik maraqlarına zərbə vurmağa çalışdığı üçün sərt tənqid edib.Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, hakimiyyət tərəfindən atılan addımlar, siyasi dialoqun başlanması və müxalifət partiyaları tərəfindən buna müsbət reaksiya verilməsi müstəqillik dövründə tam yeni vəziyyətin yaradılmasına gətirib çıxarır: ""O ki, qaldı bu dialoqdan imtina edənlərə, onları siyasi qüvvə adlandırmaq düzgün olmaz. Çünki bu düşərgədə cəmləşən insanlar uzun illərdir iqtidara qarşı yox, dövlətimizə, xalqımıza qarşı çirkin mübarizə aparırlar. Onların əsas məqsədi vəziyyəti gərginləşdirməkdir. Ölkəmiz üçün, xalqımız üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır".

### Korona+müxalifət = virus

Müşavavirədə çıxışında Cənab Prezident AXCP və Müsavat partiyalarından danşarkən deyib ki, indi koronavirus bunlar üçün sanki, göydəndüşmə bir hədiyyədir: ""Bu gün koronavirusa sevinən ancaq bu antimilli qruplaşmadır. Mən təbii ki, baş verən hadisələrdən xəbərdaram və bilirəm ki, bunların bu çirkin niyyətləri dəhşətli bir mənzərə yaradır. Ölənlərin sayının artmasını arzulayırlar, xəstələrin sayının artmasını istəyirlər, sevinirlər ki, insanlar vəfat edir. Yəni, bu, iqtidara qarşı deyil, dövlətə qarşı düşmənçilikdir. Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları belə də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq. Sözüm onda deyil, sözüm ondadır ki, siyasi islahatlar bu gün tam yeni bir konfiqurasiya yaradır. Əminəm ki, marginal qruplaşmaya yeni konfiqurasiyada yer yoxdur və olmamalıdır. Azərbaycan xalqı onları 27 il bundan əvvəl tarixin zibilxanasına atıbdır".

Bir sözlə, göründüyü kimi, artıq dağıdıcı müxalifətin alnına yapışdırılan satqın və xəyanətkar adı mövcud faktlarla dönə-dönə təkrarlanır. Müxalifıt isə bundan nəticə çıxarmır. Məsəl var deyərlər, "abırsız bəd əməlindən utanmaz, əksinə daha həyasızlıqla fəaliyyətini davam etdirər". Bunlarda öz əməllərindən utanmadan abırsız siaysi fəaliyyətlərini davam etdirirlər. Bu baxımdan dağıdıcı müxalifətə bu adı da vermək daha münasib olardı, korona+müxalifət = virus.

**İ.ƏLİYEV**

# "Mübarizə tədbirlərini qaralayanların şansları yoxdur"



***"Müstəqillik tariximizin ilk video dövlət müşavirəsi bir sıra xarakterik əlamətlərlə fərqləndirilə bilər. Ölkənin daxili və xarici siyasəti, pandemiya ilə mübarizə, davamlı islahatlar, iqtisadi sabitlik, Dağlıq Qarabağ problemi, bəzi beynəlxalq dairələrin Azərbaycana qərəzli yanaşmalarını inadla davam etdirmələri və digərləri ilə bağlı düşündürücü mesajlar sözügedən konfransa geniş marağı təmin edən amillərdir". Bu fikirləri SİA-ya açıqlamasında "Bakı Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.***

O bildirib ki, Azərbaycanın yeni daxil olduğu daxili siyasi konfiqurasiyanın əsas əlamətlərinin təqdim olunması baxımından videokonfransın rolu barədə ayrıca danışmağa ehtiyac yaranır: "Prezident İlham Əliyev videokonfrans şəklində keçən müşavirədəki nitqində bu mərhələnin bir neçə əsas xüsusiyyətini göstərdi. Siyasi qüvvələrin mütləq əksəriyyətinin dövlətçilik mövqeyində dayandığını bildirən dövlət başçısı əslində cəmiyyətimizdə real siyasi qüvvələr nisbətinin aydın mənzərəsini çəkdi. Bu mənzərə onu ifadə edir ki, bəzi müxalif dairələrin "böyük-böyük" iddialarına baxmayaraq Azərbaycanda siyasi qüvvələr nisbəti tam şəkildə hakimiyyətin tərəfindədir".

Ekspert söyləyib ki, Prezident İlham Əliyev müşavirədə yeni konfiqurasiya mərhələsində müxalifətin fərqli perspektivlərə malik müxtəlif qruplaşmalarının da sərhədlərini aydın göstərdi: "Təbii ki, yeni siyasi konfiqurasiyada heç də bütün müxalif sayılan qrupların yeri yoxdur və olmayacaq. Ölkə başçısı aydın şəkildə bildirdi ki, yalnız dövlətçilik mövqeyi olan, siyasi dialoqa gedən, ifrat ittihamçılıqdan uzaq, dövlət idarəçiliyində qanuni üsullarla birbaşa və dolayı iştiraka qadir müxalif qüvvələr yeni konfiqurasiyada təmsil oluna biləcəklər. İllərdən bəri ardıcıl boykot bəyanatları verən, siyasi proseslərdən özünü kənarda qoyan, siyasi proseslərdə iştirakın ancaq küçə-meydan aksiyaları formasını məqbul sayanların təbii ki, yeni konfiqurasiyada təmsilçilik şansları olmayacaq. Dövlətin bu günlərdə koronavirusla ağır mübarizəsinin özünü də qaralamaq istəyən opponentlərin siyasi müxalifət adı altında yeni konfiqurasiyaya düşmək şansları necə ola bilər ki?!".

A.Quliyev vurğulayıb ki, normal məntiqin hökmünə görə, bu ağır günlərdə özlərini hətta barışmaz radikal sayanlar da müxalifətçilik fəaliyyətinə ara verərək ümumi bəla ilə dövlət mübarizə tədbirlərinə dəstək verməli, ya heç olmasa maneçilik etməməli idilər: "Əvəzində ifrat ittihamçılıq hətta pandemiya əleyhinə dövlət tədbirlərinin özünün də qaralanmasına qədər dərinləşdirildi. Koronavirusla Mübarizə Fonduna "1 manat" kömək etməyi özünə borc bilməyən müxalif qruplaşmanın Azərbaycanın yeni siyasi konfiqurasiyasında necə iştirak etmək şansı qala bilər?! Hər bir dövlətin tarixində elə məqamlar olur ki, hər bir siyasi qüvvə düşmən kimi deyil, ya tərəfdaş, ya da sağlam və qərəzsiz opponent olmağı bacarmalıdır. Yoluxan və ölənlərin statistikası üstündə siyasət qurmaq taktikasını xalq da düşmənçilik kimi qəbul edir və belə taktika ilə gedənlər nəinki yeni siyasi düzəndə təmsil olunmaq şansını itirir, ümumiyyətlə sivil siyasi sistemin ekementi kimi yox olub gedir".

Ölkə başçısının sivil siyasi müxalifətin həqiqi güc göstəricilərinin nələrdən ibarət olduğunu təhlil etdiyini xatırladan baş redaktor qeyd edib ki, Prezident göstərdi ki, müxalifətin güc anlayışı heç də qanunsuz aksiyalarda, seçki boykotlarında, hər şeyi pisləməkdə, hər şeyi qara görməkdə, başqasının uğurlarını danmaqda deyil: "Müxalifətin gücü odur ki, hakimiyyətin səhv və ya görmədiklərini sağlam şəkildə görsün, proqram və təlimatlar, qrafiklər və qanun layihələri təqdim etsin, dövlət idarəçiliyində iştirak üçün sağlam kadrlar yetişdirsin, dövlətçilik məsələlərində isə açıq mövqe göstərməyi özünə yersiz şəkildə ayıb bilməsin. Beləliklə, yeni siyasi düzən şəraitində perspektivdə iki taleyi olan müxalifət görmək mümkündür. Özünü xalqdan və siyasi sistemdən kənarda qoyaraq tam iflas olmaq yolunu tutmuş radikal müxalifət və güclü sivil qüvvəyə çevrilmək şansına malik müxalifət. Kimin yolunun uzun olacağı artıq hər qüvvənin özündən asılı olduğu dövr başlayır".

**Nailə Məhərrəmova**

# Bu gün Bakıda 16 dərəcə isti olacaq



***Aprelin 17-nə gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata əsasən sabah Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, lakin gecə bəzi yerlərdə yağış yağacağı gözlənilir. Arabir güclənən şimal-qərb küləyi səhər mülayim cənub küləyi ilə əvəz olunacaq. Havanın temperaturu Abşeron yarımadasında gecə 7-9, gündüz 13-16, Bakıda gecə 7-9, gündüz 14-16 dərəcə isti təşkil edəcək.***

Atmosfer təzyiqi 764 mm civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 50-55 faiz olacaq. Aprelin 17-də Azərbaycanın rayonlarında arabir yağış, dağlıq ərazilərdə qar yağacağı, gündüz əksər rayonlarda havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Duman olacaq, qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 5-10, gündüz 18-23, dağlarda gecə 1-6, gündüz 8-13 dərəcə isti olacaq. Tibbi-meteoroloji proqnoza gəlincə, aprelin 17-də Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

# DSX müsabiqə elan edir

***Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti "Müqəddəs Sərhədlərimizin keşiyində" mövzusunda yaradıcılıq müsabiqələri elan edir. SİA həmin müsabiqənin şərtlərini təqdim edir: Müsabiqənin keçirilməsində əsas məqsəd gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, cəmiyyətimiz üçün sağlam düşüncəli gənclərin yetişdirilməsi, onların Vətənimizin müqəddəs sərhədlərinə hörmət ruhunda tərbiyə olunması, sərhədçi peşəsinə marağın artırılması, sərhəd xidmətinin xüsusiyyətlərinin və əhəmiyyətinin ictimaiyyətə çatdırılması, sərhədlərimizin mühafizəsi sahəsində əcdadlarımızdan miras qalmış milli-mənəvi dəyərlərin, ənənələrin yaşadılmasıdır.***

Müsabiqə "Müqəddəs sərhədlərimizin keşiyində" mövzusunu özündə əks etdirən mahnı, dekorativ-tətbiqi sənət (bədii tikmə, toxuma, əlvan metal üzərində döymələr, taxta üzərində oyma və yandırma işləmələri), təsviri sənət (rəngkarlıq), bədii ədəbiyyat (şeir, hekayə), qəzet məqaləsi və inşa yazısı nominasiyaları üzrə keçirilir.

Müsabiqənin şərtləri:

1. Müsabiqədə mahnı, dekorativ-tətbiqi sənət (bədii tikmə, toxuma, əlvan metal üzərində döymələr, taxta üzərində oyma və yandırma üsulu ilə işləmələr), təsviri sənət (rəngkarlıq), bədii ədəbiyyat (şeir, hekayə), qəzet məqaləsi nominasiyaları üzrə yaşından asılı olmayaraq bütün yaradıcı şəxslər, inşa yazısı nominasiyasında isə sərhədyanı rayonların orta məktəblərinin şagirdləri iştirak edə bilərlər.

2. Mahnı, dekorativ-tətbiqi sənət, təsviri sənət, bədii ədəbiyyat və qəzet məqaləsi üzrə təqdim olunan işlər üzərində müəllif barədə məlumatlar göstərilmir. Həmin məlumatlar anketdə əks etdirilir (anketin forması qaydaya əlavə olunur) və zərfə qoyulur. Əl işlərinin arxasında və zərfin üzərində şərti ad qeyd olunur və aşağıdakı qaydada təqdim olunur:

2.1. şeir, hekayə və qəzet məqaləsi nominasiyalarında iştirak edənlər yazılarını çap elektron formada (CD diskdə, Arial 12 şriftlə);

2.2. mahnı müsabiqəsi nominasiyasında iştirak edənlər musiqi əsərlərinin sözlərini və notlarını yazılı formada, tam mətnli musiqisini isə DVD diskdə;

2.3. dekorativ-tətbiqi sənət üzrə təqdim edilən əl işlərinin ölçüləri 90 x 70 santimetr ölçüdən az olmamalıdır;

2.4. rəngkarlıq üzrə əsərlər kətan parça üzərində çəkilməli və çərçivəyə salınmalı, 90 x 70 santimetr ölçüdən az olmamalıdır;

2.5. inşa yazısı 12 vərəqli dəftərdə, göy rəngli qələmlə yazılmalı, dəftərin üz hissəsində şagird haqqında məlumat (şagirdin soyadı, adı və atasının adı, rayon və məktəb haqqında məlumat və əlaqə telefonu) qeyd olunmalıdır. Müsabiqənin keçirilməsi və qiymətləndirilməsi üçün hərbi hissələrdə rayon təhsil şöbələri ilə birgə xüsusi komissiyalar yaradılır. Komissiyalar 3 (üç) ən yaxşı inşa yazısını qiymətləndirir.

3. Müsabiqəyə təqdim edilən bütün əsərlər və əl işləri müvafiq qaydada doldurulmuş anketlə birlikdə 2020-ci il iyun ayının 30-dək Dövlət Sərhəd Xidmətinin Şəxsi Heyət üzrə Baş İdarəsinə təqdim edilməlidir (Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 30).

4. Təqdim olunan bütün əsərlərdə (əl işlərində) Azərbaycan Sərhəd Mühafizəsi tərənnüm edilməli, əsərlər (əl işləri) müsabiqəyədək heç bir yerdə çap, nəşr və yaxud nümayiş etdirilməməlidir.

5. Dövlət Sərhəd Xidmətinin, Təhsil Nazirliyinin, Azərbaycan Rəssamlar İttifaqının, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Bəstəkarlar İttifaqının və Mətbuat Şurasının nümayəndələrindən ibarət komissiya yaradılır, komissiya hər nominasiya üzrə 3 (üç) ən yaxşı əsəri seçir, qalibləri müəyyən edir.

6. Müsabiqənin nəticələri Azərbaycan Sərhəd Mühafizəsinin 101-ci ildönümü ərəfəsində elan ediləcəkdir.

7. Müsabiqə ilə bağlı yaranmış suallarla iştirakçılar hərbi hissələrin şəxsi heyət üzrə şöbələrinə və Dövlət Sərhəd Xidmətinin Şəxsi Heyət üzrə Baş İdarəsinə müraciət edə bilərlər (012-498-01-29; 012-498-01-55).

**Müsabiqə qalibləri üçün aşağıdakı mükafatlar təsis olunur:**
**Mahnı müsabiqəsi üzrə:**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Dekorativ-tətbiqi sənət üzrə:**
**Bədii tikmə və toxuma**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Dəmir (əlvan metal) üzərində döymələr**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Taxta üzərində oyma və yandırma**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Təsviri sənət üzrə:**
**Rəngkarlıq**
I yer - 1-ci dərəcəli diplom və 700 (yeddi yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 600 (altı yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı.

**Bədii ədəbiyyat üzrə:**
**Şeir**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Hekayə**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Qəzet məqaləsi üzrə:**
I yer - 1-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 350 (üç yüz əlli) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**İnşa yazısı üzrə:**
I yer - 1-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 350 (üç yüz əlli) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

Müsabiqə iştirakçısının anketi (nümunə)
______________________________________________
(soyadı, adı, atasının adı)
Doğum tarixi (gün, ay, il) və yeri______________________
Təhsili ________________________________________
İş yeri, vəzifəsi _________________________________
Ünvan, telefon (ev, iş, mobil) _______________________
Müsabiqəyə təqdim olunan işlər
1. ____________________________________________
2. ____________________________________________
(əsərin adı)
İşi təhvil verdi: __________________________________
İşi təhvil aldı: ___________________________________

## Şübhəli bilinən 38 nəfər saxlanılıb



Ötən gün daxili işlər orqanlarında qeydə alınan cinayət faktları və hadisələr haqqında statistik məlumatlar açıqlanıb. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən Trend-ə verilən məlumata görə, aprelin 15-də törədilən 10 cinayətin üstü "isti izlər"lə açılıb.

Əvvəlki dövrlərdən bağlı qalmış 3 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 8 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 2 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 1 ağır yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 1 nəfər ölüb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 17, qanunsuz saxlanılan silah-sursatla bağlı 1 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 38 nəfər saxlanılıb.

## Karantin qaydalarını pozan maşın ustası cərimə edildi

Ölkə ərazisində xüsusi karantin rejiminin elan olunmasına baxmayaraq bəzi şəxslər tərəfindən nizam-intizamın pozulması hallarına rast gəlinməkdədir. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Səbail Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən keçirilən tədbir zamanı Badamdar qəsəbəsi ərazisində avtomobil təmiri sexində karantin qaydalarının pozulduğu məlum olub. Polis əməkdaşları tərəfindən həmin sexdə işləyən paytaxt sakini Fəqan Məmmədov Səbail RPİ-nin 41-ci Polis Bölməsinə gətirilib.

Xüsusi karantin qaydalarını pozan şəxs barəsində məhkəmənin qərarı ilə İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə tədbir görülərək o, 200 manat miqdarında cərimə edilib.



## Sumqayıtda yolu keçən piyadanı avtomobil vurub öldürdü

***Sumqayıt şəhəri 11-ci mikrorayon ərazisində yol-nəqliyyat hadisəsi baş verib. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, aprelin 14-də Sumqayıt şəhəri 11-ci mikrorayon ərazisində müəyyən edilməmiş avtomobillə yolu keçən Qubadlı rayon sakini Abbas Məmmədov vurulmuşdur. Piyada xəsarətlə xəstəxanaya yerləşdirilib.***

Sumqayıt ŞPİ 5-ci PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yol-nəqliyyat hadisəsini törətməkdə şübhəli bilinən "Mercedes" markalı avtomobilin sürücüsü, Sumqayıt sakini H.Həsənov saxlanılıb. A.Məmmədov xəstəxanada ölüb.



# Əli Kərimlinin maxinasiya əməllərini ictimaiyyət bilməlidir

*Və ya AXCP sədri haqqında olan danılmaz faktları bir daha xatırlayaq*

***Sirr deyil ki, AXCP sədri zaman-zaman siyasi dividentləri ilə yanaşı, şəxsi mənfəətlərini də artırmaqla məşğul olub. Yəni maddi vəziyyətini yüksək səviyyədə təmin etməklə. Bu gün bütün dünyada olduğu kimi, Azərbaycanda da koronavirus təhlükəsi ilə bağlı ciddi ölçülər götürülür, bu xüsusda xalqın sağlamlığının mühafizəsi, bu təhlükədən minimal itkilərlə yan keçməsi üçün bütün tədbirlər görülür.***

O cümlədən, sosial təminatın davamlığı qorunub-saxlanılır. Lakin təəssüf ki, qaragüruh qüvvələr, xüsusilə Əli Kərimli bu və ya digər şəkildə Azərbaycan dövləti və xalqı əleyhinə fəaliyyətini davam etdirməklə, sözün əsl mənasında düşmənçilik sərgiləyir. Hətta insanları küçələrə çıxmağa, etirazlar etməyə səsləyən bu anti-milli ünsür faktiki olaraq, ölkəmizdə mövcud olan sabitliyi pozmaq üçün, ermənidən betər erməniçilik sindromlarını nümayiş etdirməkdədir. Halbuki, onun hazırkı dövrə qədər fəaliyyətinin hər birində anti-xalq, anti-Azərbaycan amilləri dayanmaqdadır. Ümumiyyətlə, zaman-zaman AXCP sədrinin maxinasiyaları, dövlət əleyhinə fəaliyyəti barədə ictimaiyyət də xəbərdar olmalıdır!

Qırmızı-qırmızı bəyan etdi ki, pulları ona dostları (???!!!) göndərir və s.

Digər tərəfdən, bu gün bütün dünyada olduğu kimi, Azərbaycanda da biznes qurmaq, maddi gəliri artırmaq üçün hər bir vətəndaşa kifayət qədər imkan və şərait yaradılıb. Ancaq bu o demək deyil ki, sən bu imkanlardan sui-istifadə edərək, dövlətin cibinə girib ona kəf gələsən. Məsələn, götürək AXCP sədri Əli Kərimlini və onun dələduzluq, vəzifə səlahiyyətlərindən sui-istifadə, vəzifə saxtakarlığı, rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, hazırlama, satma və saxta sənədlərdən istifadə etmə və digər maddələrlə ittiham olunmuş Elnur Seyidovla bağlı bir neçə il əvvəl ortaya çıxmış faktları. AXCP sədri həmin vaxtlarda ifşa olunan maxinasiyalar barədə, saxta bank köçürmələri haqqında bir kəlmə də heç nə demədi. Amma sözün əsl mənasında qırmızı-qırmızı bəyan etdi ki, pulları ona dostları (???!!!) göndərir və s.

Hətta bir neçə il əvvəl Ə.Kərimlinin əmisi oğlunun, eləcə də digər tanışlarının da bu kimi aqibətlərlə üzüzə qalmaları bilavasitə Ə.Kərimlinin boynuna yazılmış günahlardır. Çünki bu gün "xalqımız alnının təri ilə, həbsxanalardan keçə-keçə, min bir əziyyətlə ölkəmizdə azadlıq və ədaləti bərqərar etməkdədir və edəcək" iddiası ilə çıxış edən AXCP sədri nədənsə son illər həbsxanaya düşüb-eləmir. Həbsxanalara düşənlər isə onun belə populist, araqarışdıran çıxışlarına mübtəla olaraq xəstələndirilən binəva kəslərdirlər. Ə.Kərimli bilməyə məhkumdur ki, onun tərəfindən xəstələndirilən beşon nəfər belə kəsləri "xalq" adlandırmaq onun imtiyazında olmayan məsələdir. Bu gün xalq bu dövləti, bu məmləkəti, öz dövlət başçısını, dövlətçilik ənənələrini qoruyub-saxlayanlar kütləsidir, daha Ə.Kərimlinin günahı ucbatından həbsxanalara düşən beş-on nəfərə "xalq" deyə müraciət etmək sadəcə cinayətdir!




### AXCP sədrinin Texnikabank sərgüzəştləri unudulmayıb

Yaxşı olardı ki, Ə.Kərimli bir müddət əvvəl ona qarşı irəli sürülən bank maxinasiyaları haqqında daha ətraflı açıqlamalar verəydi və xalq da görəydi ki, AXCP sədri bankir kimi danışıb nəyisə sübut etməyə çalışarkən, əsil reallığı etiraf etmək gücündə deyil. Ə.Kərimli də unutmamalıdır ki, onun və yaxın qohumlarının müxtəlif banklar vasitəsilə həyata keçirdikləri 8 milyon 388 min manatlıq maxinasiya hələ uzun müddət müzakirə mövzusu olacaq. Çünki Ə.Kərimlinin bankirlər kimi verdiyi cavablar özü-özlüyündə daha böyük suallar doğurur və bank qalmaqalını bir qədər də dolaşığa salır.

Qısa bir xatırlatma - Ə.Kərimli iddia edirdi ki, indiyədək heç bir xarici ölkənin heç bir fondundan heç bir qrant almayıb, heç bir bankdan kredit götürməyib və heç bir bankda heç bir hesabı olmayıb. Yalnız 2012-ci ildə Beynəlxalq Bankda xüsusi hesab açıb ki, 2005-ci ildə parlamentə seçildiyi, amma mandatının ləğv olunduğu üçün Avropa Məhkəməsinin təyin etdiyi 30 min avro cəriməni həmin hesab vasitəsilə alıb. Ancaq sonradan bəlli oldu ki, bank sənədlərində Ə.Kərimli 2008-ci ildə "Texnikabank"dan 145 min (!) manat məbləğində kredit götürdüb. Ə.Kərimli götürdüyü krediti elə həmin ildə də ödəyərək borc hesabını büsbütün bağlayıb. Deməli, Ə.Kərimli kredit götürüb! Hərçənd ki, o, bu gün də bu faktı təkzib etməyə çalışır.

### "Cəbhə" sədrinin söylədiyi hər bir fikir onun öz əleyhinə işləyir

Xatırlatmaq yerinə düşərdi ki, bir müddət öncə Ə.Kərimli bayraqdar Elman Türkoğlunun "30 milyonluq villa" iddiasını da təkzib edə bilmədi. E.Türkoğlu indi yayılan bank sənədlərindən öncə demişdi: "Əli Kərimlidən soruşuram: Londonda 23 milyonluq villa kimindir? Bilgəhdəki 3,5 milyonluq villa kimindir? Camaatın oğlu meydanlara çıxır, onun oğlu ildə 25-30 min dollar pulla xaricdə oxuyur. Bu gün müxalifətdə quldarlıq sistemi hökm sürür. Əli Kərimli AXCP-də pulla gəncləri saxlayır ki, mitinqlərə digər partiyalardan daha çox adam çıxarsın. Adama deyərlər, bu qədər pul səndə haradandır?"

Əslində, ilginc nəticələr ortaya qoyur. Heç bir yerdə işləməyən Ə.Kərimli, xaricdə təhsil alan oğlu Türkel Kərimli və qohumları 2012-ci il oktyabrın 30-dan 2013-cü il iyunun 13-dək olan müddətdə banklardan 8 milyon 603 min 364 manat (!) nağd pul çıxarıblar. Bütün bunlarla yanaşı, Ə.Kərimli 2 il ərzində müntəzəm olaraq nəhəng məbləğlərdə pul çıxarıb, böyük məbləğli maliyyə əməliyyatları aparıb, eləcə də iri həcmdə pul kütləsini qəbul edərək, iri məbləğlərdə vəsaitləri müəyyən yerlərə göndərib. Maraqlıdır, bu pullar haradan gəlib?

### Əli Kərilmli cavab verməlidir!

AXCP sədri Əli Kərimlinin daha bir maxinasiyası barədə də fakt deyək. Belə ki, cəbhə sədrinin Azərbaycanda bir sıra maraqları olan və maraqlarının təmin olunması üçün təzyiqlər göstərməyə cəhd edən beynəlxalq təşkilatlardan aldığı qrant vəsaitlərinə daha biri də əlavə olunub. Onun 2012-2013-cü illərdə Avropa Demokratiya Naminə Dəstək Fondundan 200 min dollar məbləğində qrant alması arxasında isə bir çox qaranlıq məsələlər dayanıb. Və çox maraqlıdır ki, daimi olaraq "demokratiyadan", "azadlıqdan", "korrupsiyadan" pafosla danışan Əli Kərimli yenə də əldə etdiyi vəsaitləri partiyadaşlarından gizləbib. Məsələn, "Azadlıq" qəzetinin böyük məbləğdə olan borcları, AXCP-nin qərargahla bağlı problemləri, icazəsiz aksialara qatıldıqlarına görə cəbhə fəallarının ödənməmiş cərimələri və digər problemlərə baxmayaraq, Əli Kərimli tərəfindən mənimsənilmiş vəsaitlər sözügedən istiqamətlərə xərclənməyib.Beləliklə, Ə.Kərimlinin özündən və özünə yaxın olan ətrafından başqa bu barədə heç bir AXCP üzvünün xəbəri yoxdur.

Lakin digər maraqdoğurucu məqam da budur ki, gah xalqın cibinə girərək müxtəlif pulyığma kampaniyaları keçirən cəbhə sədri utanmazutanmaz elektoratı qarşısına çıxaraq özünü xalq yolunda yanan "əzabkeş azadlıq mücadiləçisi" kimi təqdim edir.

Bu kimi məsələlər isə bir daha belə qənaətə gəlməyə əsas yaradır ki, təmsil olunduğu düşərgədə əvəzolunmaz maxinator kimi tanınan AXCP sədri Əli Kərimli bu ərəfələrdə cəbhəçilər qarşısında hesabat verməyə məcbur olacaq. Çünki bu dəfə onun harasa qaçmağa imkanı yoxdur. Məhz bütün bu fikirlərdən və qabaqcadan gəlmişliklərdən o da aydın olur ki, Ə.Kərimli nə qədər özünü müdafiə etməyə çalışsa da, haqqında deyilənləri təkzib edə bilmir. Əksinə, söylədiyi hər fikir onun əleyhinə işləyir...

**Rövşən NURƏDDİNOĞLU**

# "Anti-milli ünsürlər bu dövlətin də, xalqın da düşmənləridir"

***""Milli Şura" adında ləkənin Azərbaycan siyasətinə heç bir dəxili yoxdur" Bəlli olduğu kimi aprelin 14-də Prezident İlham Əliyevin Sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə Cənab Prezident ölkədəki iqtisadi durumdan, koronavirusun iqtisadiyyata təsirlərindən danışıb və müxalifətin dağıdıcı və düşmən mövqedə olduğunu bildirib. Söhbət etdiyimiz müsahiblərimiz Prezidentin müxalifətlə bağlı fikirlərinin əsaslı olduğunu bildirdilər.***

## Demokratik Maarifçilik Partiyasının sədri, millət vəkili Elşən Musayev: "Radikal nadürüstlərə qarşı susqun qalmaq olmaz"



- Azərbaycanın inkişafını gözü götürməyənlər, xaricdən gələn maliyyə ilə yemlənənlər, aldıqları qrantların hesabatını vermək üçün dəridən-qabıqdan çıxanlar, "internetim və telefonum bağlandı"- deyə absurd və sərsəm açıqlamalarla çıxış edənlər, gündəmə gəlməyə çalışanlar, ən həssas vəziyyətdə də öz nadanlıqlarına, riyakarlıqlarına, namərdliklərinə, nakişiliklərinə ara verməyənlər, demokratiyanın "d" hərfindən belə xəbərdar olmayanlar, satqınlar, antimilli ünsürlər bu dövlətin də, xalqın da düşmənləridir. Onları məhz öz adları ilə çağırmaq lazımdır. Onlara məhz öz adları ilə müraciət etmək lazımdır. Adları və ayamaları ilə. Radikal nadürüstlərə qarşı susqun qalmaq olmaz, mövqe bildirmək lazımdır. Dövlətçilik artibutlarınının, dövlətin sabahının və gələcəyinin qəsdinə duranlar, siyasi mübarizəni mənəviyyatsızca aparanlar cəmiyyətdən də, siyasətçilərdən də anındaca sərt və davamlı təpki görməlidir və görür də! "Milli Şura" adında ləkənin Azərbaycan siyasətinə heç bir dəxli yoxdur. Olmayıb. Olmayacaq! Onlar tarixin zibilliyində belə özlərinə yer tapa bilməyəcəklər. Çünki zibilxana belə onlara çoxdur. İnsan bu qədər qaramat olmaz. İnsan bu qədər hər şeyi qara görməz, qaralamaz. İnsan bu qədər hallusinasiyalara qurşanmaz. Əli Kərimli hər gün bir şou göstərir, usanmadımı, yorulmadımı? Ay telefonumu bağladılar, ay internetimi kəsdilər, ay admin heyəti belə yazdı, ay "Azadlıq" radiosuna bunu söylədim. Sən siyasətçisən, yoxsa janqlyor? Bəsdir də, sirk nömrələri göstərdin. Yoxsa elə bilirsən, bu avantüralarının hər yerdə və hamı üçün keçərlidir? Seçkidə yoxsan. Dialoqa çağırılan kimi anındaca ilim-ilim itirsən. Yəni, üzbəüz, dəyirmi masada da yoxsan. Regionda yoxsan. İnsanların arzularında, yanında yoxsan. Tədbirdə yoxsan. Xeyirdə yoxsan, şərdə yoxsan. Bəs sənin varlığın nə vaxt, nə ilə ehtiva və realizə olunur, a bəy? Yalnız "facebook"da sərgilədiyin populizmləmi? Hansısa beynəlxalq təşkilatın ya da qurumun cibindən boylanan baxışlarınlamı? Palto və kostyum üzərindən geyindiyin köynəklərin rəngi iləmi? Bölgədə və dünyada baş verən inqilabların uğursuz variantda tutuquşuluğunu eləməklәmi? Düşmənsiz siz. Gerçək anlamda düşmən. Və bu düşmənçiliyə görə zaman gələcək, tarix sizi məşhər ayağına çəkəcək. Buna əmin ola bilərsiz.

## "Yurddaş" Partiyasının sədri Mais Səfərli: "Bəli, Prezident İlham Əliyevin dediyi kimi müxalifət artıq iflasa uğrayıb"



- Normal demokratik cəmiyyətlərdə müxalifətin olması zəruridir. Yəni Azərbaycanda da müxalifət var, lakin bizim müxalifət iki hissəyə bölmək olar. Birinicisi, qanunlarımız, konstitusiyamız çərçivəsində fəaliyyət göstərən və bu gün onların böyük bir qisim də parlamentdə təmsil olunur və Prezident İlham Əliyevin qeyd etdiyi kimi bizim ölkəmizin tarixində də ilk dəfə olaraq parlamentin rəhbərliyində, komitələrin rəhbərliyində həmin o normal müxalifətin nümayəndələri də təmsil olunubdur. Bunun özü də bu gün cəmiyyətimiz də yeni bir siyasi ovqat formalaşdırıb, normal iqtidar müxalifət münasibətlərinin düzgün axarda gedilməsi üçün bir zəmin yaradıbdır. İkincisi isə, çox təəssüflər olsun ki, müxalifət düşərgəsində radikal, dağıdıcı qanadda var, onlar uzun illərdir ki, Azərbaycanda dağıdıcılıq, pozuculuq fəaliyyəti ilə məşğuldurlar. Onlar Azərbaycanda gedən bütün müsbət proseslərə ləkə yaxmaqla, böhtan atmaqla məşğuldurlar. Təbii ki, radikal müxalifətin cəmiyyətdə heç bir dəstəyi yoxdur, yalnız bir qrup adamlar xarici havadarlarından aldıqları sifarişləri sosial şəbəkələrdə ağızlarına gələni danışmaqla, ağa qara deməklə, Azərbaycanda görülən, aparılan böyük işlərin, islahatların üzərinə kölgə salmaqla yerinə yetirirlər. Lakin sözügedən qüvvələrin cəmiyyət tərəfindən heç bir dəstəyi yoxdur. Artıq cəmiyyət çoxdan onları özündən uzaqlaşdırıb və onlar artıq çoxdan iflasa uğrayıblar. Lakin bu sosial şəbəkələrin mövcud olmağı və sosial şəbəkələr vasitəsi ilə xüsusilə də bəzi internet televiziyalar mövcuddur ki, o televiziyalarda heç kəsə sirri deyil ki, xarici ölkələrdə anti-Azərbaycan dairələr tərəfindən maliyyələşirlər. Yəni o kanallar Azərbaycanda deyil, əksəriyyəti xarici ölkələrdən yayımlanır. Baxmayaraq ki, onlar ölkəmizlə bağlı ağızlarına gələni danışır. Amma Azərbaycan cəmiyyəti onları dəstəkləmir. Bəli Prezident İlham Əliyevin dediyi kimi müxalifət artıq iflasa uğrayıb, onların cəmiyyətdə heç bir çəkisi, sözü, siyasi təsiri yoxdur və onlar özləri-özlərinin bu cür addımları və fəaliyyətləri ilə gətirib uçurumun dibinə salıblar. O uçurumun dibindən onları heç nə çıxara bilməyəcəkdir. Bir sözlə, radikal müxalifət siyasi uçurumun dibindədir.

***Gülyana***

# Ermənilərin mifik xülyaları və reallıqlar

***Müasir dünyanın görkəmli dövlət xadimi, Azərbaycan Prezidenti İlham Əliyev özünün bütün yüksək səviyyəli görüşlərində, nitq və çıxışlarında ermənilərin Cənubi Qafqaza gəlmə əhali olduğunu, onların bu ərazidə məskunlaşmasından sonra regionda gərginliyin artdığını, müasir Ermənistan Respublikasının və nəzarətdən kənarda qalmış oyuncaq Dağlıq Qarabağ rejiminin terror yuvalarına çevrildiyini xüsusi olaraq vurğulayır. Zəngin tarixi biliyə malik olan Azərbaycan Prezidenti indiki Ermənistan Respublikasının tarixi Azərbaycan torpağında - keçmiş İrəvan xanlığının ərazisində yarandığını bütün dünyaya bəyan edir.***

Ölkə başçısı bütün müvafiq strukturları erməni saxtakarlarına qarşı informasiya müharibəsində hücuma keçməyə çağırır. Erməni faşizmi üzərində qələbə çalmaq, doğma torpaqlarımızı azad etmək üçün öncə informasiya müharibəsində qalib gəlmək gərəkdir. Bütün xalqımız ölkə başçısının çağırışına cavab verməli, iqtisadi və hərbi cəhətdən qüdrətli Azərbaycan dövləti yaratmaq üçün onun ətrafında sıx birləşməlidir.

Tarixi həqiqəti dünya ictimaiyyətinin diqqətinə çatdırmaqla informasiya müharibəsində qələbə və hərbi-iqtisadi cəhətdən qüdrətli Azərbaycan dövləti yaratmaq! - Terror, soyqırımları və zorla özgə torpaqlarına yiyələnməyə çalışan erməni faşizmini diz çökdürmək üçün yeganə düzgün yol məhz bu yoldur. Başqa yol yoxdur!

“Böyük Ermənistan” yaratmaq xülyasından əl çəkməyən və yalançı “erməni soyqırımı”nı sübuta yetirməyə çalışan erməni millətçiləri müasir qloballaşan dünyada xalqların və ölkələrin yaxınlaşması yolunda ciddi əngələ çevrilmişlər. Dünyanın hər yerinə səpələnmiş çoxsaylı erməni təşkilatlarının geniş maliyyə imkanları, Qriqorian kilsəsinin istiqamətverici və təşkilatçılıq rolu, ayrı-ayrı ölkələrin, o cümlədən böyük dövlətlərin müxtəlif strukturlarında mühüm mövqelər ələ keçirmiş ermənilərin dünya siyasətinə təsir göstərməsi sülh və əmin-amanlıq üçün, insanlığın gələcəyindən ötrü təhlükəli maneəyə çevrilmişdir.

200 ildən artıq bir müddət ərzində Azərbaycan və Türkiyə torpaqlarında qanlı terror əməlləri, soyqırımları həyata keçirmiş ermənilərin hazırda dünyada onlarla iri terrorçu təşkilatları və çoxsaylı terror qrupları fəaliyyət göstərir. Özgə torpaqlarını işğal etmək üçün terroru, soyqırımlarını özlərinə peşə seçmiş erməni millətçiləri bu bəd niyyətlərini guya vaxtı ilə Aralıq dənizi-Qara dəniz-Xəzər dənizi arasındakı geniş torpaqları əhatə etmiş uydurma “Böyük Ermənistan” dövlətini dirçəltmək pərdəsi altında həyata keçirmək xülyasındadırlar.

Müasir mərhələdə Dağlıq Qarabağla bağlı işğalçılıq niyyətlərini həyata keçirməyə çalışan ermənilər, Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycana qarşı total hücuma keçmişlər. Erməni millətçiləri tarixi saxtalaşdırmaqda da yeni mərhələyə qədəm qoymuş, Azərbaycan tarix elminə hücumlarını daha da genişləndirmişlər. Təbriz və Ərdəbil də daxil olmaqla tarixi Azərbaycanın cənub torpaqlarını uydurma “Velikaya Armeniya”nın tərkib hissəsi hesab edən ermənilər indi daha da “dərinə” getməyə başlamışlar. Erməni millətçiləri hazırda Arazdan cənubda - qonşu İran İslam Respublikasının ərazisində öz ata-baba torpaqlarında yaşayan və özlərini bu gün də “türk” adlandıran azərbaycanlı qardaşlarımızı gimali Azərbaycanda yaşayan azərbaycanlılardan (“gəlmə köçəri türklərdən”) tamamilə fərqli olan bir xalq kimi qələmə verməyə başlamışlar. Guya Cənubda yaşayan azərbaycanlılar Şimalda yaşayan qardaşlarından fərqli olaraq İran dillərindən birində danışmış olan “azərilər” adlanan xalqın nəsilləridir və sonradan, XV-XVI əsrlərdə onların dilləri kütləvi surətdə zorla dəyişdirilib. Sən demə, cənubda yaşayan soydaşlarımız - cənubi azərbaycanlılar “genetik baxımdan bizə deyil, ermənilərə daha yaxın bir xalq” imiş. Lap bu yaxınlarda Yerevan Dövlət Universitetinin İranistika kafedrasının müdiri, prof. Q.Asatryan bununla əlaqədar çox geniş bir müsahibə ilə çıxış edərək bildirmişdir ki, ermənilərin bu istiqamətdə apardıqları tədqiqatların nəticələri artıq indidən sübut edir ki, onların (yəni ermənilərin) cənubi azərbaycanlılarla antropoloji parametrlərinin çoxu eynidir; “azərilər (Cənubi Azərbaycan türkləri nəzərdə tutulur) genetik baxımdan özlərinin Azərbaycan Respublikasındakı həmvətənlərindənsə ermənilərə daha yaxındırlar”.

Mətləb aydındır: erməni saxtakarları Arazdan cənubdakı tarixi Azərbaycanın torpaqlarını öz saxta “tədqiqatlarında” “özününküləşdirdikdən” sonra, indi də həmin ərazidə yaşayan Azərbaycan türklərinin mənşəyini saxtalaşdırmağa başlamışlar. Guya “Velikaya Armeniya”nın tərkib hissəsi olmuş Cənubi Azərbaycan torpaqlarının əhalisi də bizimlə, yəni gimali Azərbaycan türkləri ilə deyil, ermənilərlə bir kökdən imiş!? Narahatçılıq doğuran budur ki, artıq Azərbaycan Respublikasında müxtəlif yollarla “Böyük Ermənistan”ın guya həqiqət olduğunu təsdiq edən xəritələr və kitablar da nəşr olunmağa başlamışdır. Eyni fikirlər burada da səslənir.

Minlərlə Azərbaycan abidələrini məhv etmiş ermənilər və erməni kapitalının nökərləri Azərbaycanda “erməni xaçı axtarışlarına” çıxmışlar. Üzdə xalqımızın yüksək tolerantlıq mədəniyyətini tərifləyən əcnəbilər, necə deyərlər, “saman altdan su yeridərək”, Azərbaycanın türk-islam mədəniyyətini dağıtmaq üçün əllərindən gələni edirlər. Xristian missionerləri, demək olar ki, ölkənin hər yerinə yayılmışlar. Bəzi qüvvələr Azərbaycanın Qafqaz Albaniyası dövrünə aid xristian abidələrinin siyahısını və şəkillərini internet vasitəsilə xaricə ötürürlər.

Əcnəbilər Azərbaycanda keçmiş xristian abidələrinin bərpasını diqqət mərkəzinə çəkmişlər. “Böyük Ermənistan” təbliğatçıları və onların arxasında duran qüvvələrbu işdə az rol oynamırlar. Bütün bunlar xalqın müxtəlif dairələrində ciddi narazılıq və narahatlıqla qarşılanır. “Böyük Ermənistan” uydurması barədə növbəti yazım olan bu məqaləni qələmə almağım da elə bununla bağlıdır.

Beləliklə, “Böyük Ermənistan” tarixi həqiqət deyil, yalnız və yalnız, tarixdə heç bir zaman öz sabit ərazisi olmayan köçəri ermənilər üçün özgə torpaqlarını işğal etməyi qarşısına məqsəd qoymuş başabəla “milli ideologiyadır”, mürtəce dini-ideoloji və terrorçu-işğalçılıq “doktrinasıdır”. Bu işğalçı-terrorçu “doktrina” erməni millətçiləri tərəfindən özgə torpaqlarına yiyələnmək məqsədilə uydurulmuşdur. Və onun əsasında, artıq yuxarıda qeyd etdiyimiz kimi, guya vaxtilə “dənizdən-dənizə” geniş əraziləri əhatə etmiş olan uydurma “Böyük Ermənistan” dövlətini dirçəltmək ideyası durur. Bu “ideya”nın saxtalığı ondan aydın olur ki, ilk mənbələrdə, yuxarıda qeyd etdiyimiz iki coğrafi vilayət istisna edilməklə, tarixdə nə vaxtsa “Böyük Ermənistan” adlı dövlətin mövcud olması barədə heç bir məlumat yoxdur. Və özlərini az qala regionun “ən qədim xalqı”, “Nuh peyğəmbərin övladları” kimi qələmə verən erməni millətçilərinin uydurmalarının əksinə olaraq ermənilər, daha doğrusu onların ulu babaları hesab olunan qəbilələr, ümumiyyətlə, Asiya qitəsinin yerli əhalisi deyillər, bu regiona köçüb gəlmədirlər.

Antropoloji, o cümlədən somotoloji (bədən ölçüləri), kranioloji (kəllə ölçüləri), odontoloji (diş quruluşu), seroloji (qan qruplarının tədqiqi) araşdırmalar sübut edir ki, uydurma “armenoid irqi” və ermənilər nəinki Cənubi Qafqazın aborigen əhalisi - yerli sakinləri deyillər, ümumiyyətlə Ön Asiyaya da sonradan gəlmişlər. Arxeoloji qazıntılar zamanı indiki Ermənistan Respublikası ərazisindən aşkar olunmuş qazıntı materialları, o cümlədən qədim insan qalıqları da bunu aydın sübut edir. Göstərilən qədim insan qalıqlarının morfoloji quruluşu ilə sonradan həmin ərazilərdə məskunlaşan ermənilərin morfoloji quruluşu arasında heç bir oxşarlıq yoxdur. Eyni fikri son Tunc və Dəmir dövrünə aid tapıntılar da təsdiq edir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Münhendə İlham Əliyev Paşinyanı faktlarla susdurdu. 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı panel müzakirələr keçirildi.Müzakirələrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan iştirak ediblər. Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına həsr olunmuş görüşün moderatoru ABŞ-Rusiya Fondunun prezidenti Selesta Uollander olub. Panel müzakirələri bir saata yaxın davam edib.Prezident İlham Əliyev çıxışında bildirib ki, Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsidir və Azərbaycanın ərazi bütövlüyü bütün beynəlxalq ictimaiyyət tərəfindən tanınır. Dövlət başçısı vurğulayıb ki, Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib və işğal olunmuş torpaqlarda mülki azərbaycanlılara qarşı etnik təmizləmə aparıb, o cümlədən Xocalı soyqırımını törədib. Prezident, həmçinin deyib ki, ermənilər işğal olunmuş torpaqlarımızda bütün azərbaycanlıları etnik təmizləməyə məruz qoyublar. Onlar işğal altındakı torpaqlarda mədəni irsimizi məhv ediblər. Dağlıq Qarabağda Ermənistanın heç bir tarixi irsi yoxdur. Bundan başqa, Azərbaycan Prezidenti əlavə edib ki, Ermənistanın bütün liderləri mövcud status-kvonu müxtəlif yollarla saxlamağa çalışıblar: “Azərbaycanlı məcburi köçkünlər öz torpaqlarına geri qayıtmalıdırlar. İşğal olunmuş torpaqlardakı silahlı qüvvələrin 80 faizindən çoxu Ermənistan əsgərləridir. Onlar hesab edirlər ki, bu torpaqları həmişəlik saxlaya bilərlər. Heç vaxt!”.

Dövlət başçısının sözlərinə görə, ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistana izah etməlidirlər ki, Dağlıq Qarabağ Ermənistan deyil. Heç bir ölkə Dağlıq Qarabağı tanımayıb. Prezident İlham Əliyev çıxışında diqqətə çatdırıb ki, Ermənistanın baş naziri BMT Təhlükəsizlik Şurasının qətnamələrinin əsl mənasını uğursuz olaraq şərh edir. O, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin Ermənistan qoşunlarının işğal olunmuş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etdiyini unudur. Çıxışında tarixi faktlara istinad edən Azərbaycan Prezidenti İlham Əliyev Münhendə Ermənistanın baş naziri Nikol Paşinyanı növbəti dəfə susdurub, işğalçı ölkə rəhbəri geniş auditoriya qarşısında çıxılmaz vəziyyətdə qalıb.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru,dosent***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# Səs

Son səhifə

17 aprel



## Koronavirus dəhşəti artır: 25 ölkə imdad dilədi!

**Beynəlxalq Valyuta Fondu (BVF) koronavirus pandemiyası ilə əlaqədar 25 üzv ölkənin borcunun altı ay gecikdirilməsi ilə bağlı müraciətini təmin edib.**

Bu barədə fondun mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki, borcun ödənilməsinin təxirə salınması Əfqanıstan, Benin, Burkina-Faso, Haiti, Qambiya, Qvineya, Qvineya-Bisau, Konqo, Yəmən, Qəmər adaları, Liberiya, Madaqaskar, Malavi, Mali, Mozambik, Nepal, Niger, Ruanda, Sao-Tome və Prinsipi, Solomon adaları, Sierra-Leone, Tacikistan, Toqo, Çad və Mərkəzi Afrika Respublikasına şamil ediləcək. Bundan əlavə siyahıya daha dörd ölkə daxil edilə bilər. Daha əvvəl Dünya Bankı koronavirus pandemiyası ilə əlaqədar ehtiyacı olan ölkələrə yardım göstərmək üçün 200 milyard dollara qədər vəsaiti mobilləşdirməklə bağlı qərar qəbul etmişdi.

## Ronaldo Koronavirusla mübarizə üçün 1 milyon avro bağışladı




**Məşhur portuqaliyalı futbolçu, hazırda İtaliyanın "Yuventus" klubunda forma geyən Kriştiano Ronaldo koronavirusa görə yardım edən məşhurlar sırasındadır.**

O, koronavirusla mübarizə aparan səhiyyə müəssisələri üçün xeyriyyə kampaniyasına başlayıb. Ulduz futbolçu, Portuqaliya mətbuatına verdiyi açılamalarında bu dəhşətli epidemiyaya qarşı bütün qüvvələri səfərbər etməyin və insanları bu bəladan xilas etmək üçün var gücü ilə çalışmağın vacibliyini önə çəkib.

Koronavirusla mübarizəyə 1 milyon avro bağışlayan Ronaldo Milli komandadan "Avro-2020" oyun mükafatlarının bir hissəsini ianə olaraq göndərməyi təklif edib./Teleqraf

## Türkiyəli aktrisa kredit borcuna görə hotelini satışa çıxardı

**Türkiyənin məşhur aktrisası, əslən almaniyalı olan Uilma Elles şəxs hotelini satışa çıxarıb. Cazibədar aktrisa İstanbulun Beşiktaş rayonunda yerləşən 18 otaqlı otelini 11 milyon lirəyə (2,7 milyon AZN - red.) satmağa qərar verib.**

Uilmanın bu cür addım atmasına səbəb banka olan beş milyon lirəlik (1,23 milyon AZN - red.) kredit borcudur. Alıcı qıtlığı ilə üzləşən sənətçi endirim edərək, hazırda oteli doqquz milyon lirəyə (2,21 milyon AZN - red.) satır./oxu.az



## Dünyanın kasıb ölkələrə bir illik borcunu təxirə salma qərarı




Covid-19 epidemiyası səbəbiylə qlobal iqtisadiyyat tarixindəki ən əhəmiyyətli böhranlardan birini yaşayarkən, G20 ölkələri böhrandan ən çox təsirlənən ölkələrin borclarının bir il müddətinə dayandırıldığını açıqlayıb. SİA bunu xarici KİV-lərə istinadən xəbər verir. Dünyanın ən böyük iqtisadiyyatlarını bir araya gətirən G20 toplantısında, COVID-19-un səbəb olduğu səhiyyə və iqtisadi böhranla mübarizə üçün "bütün mövcud siyasət vasitələrindən" istifadə edəcəyinə söz verilib.

Dünən videokonfrans vasitəsilə bir araya gələn G20 maliyyə nazirləri və mərkəzi bank rəhbərləri görüşdən sonra ortaq bir açıqlama veriblər. Açıqlamada, kasıb ölkələrin borclarının geri qaytarılmasının dayandırılmasının dəstəkləndiyi vurğulanıb və kreditor ölkələrin də daxil olduğu Paris Klubu tərəfindən qəbul edilən borc xidmətinin dayandırılmasına cəhd edilməsinə razılaşdırılmış bir yanaşmanın edildiyi aydın olub.

Bütün qanuni sənədlərə və iş prosedurlarına uyğun olacaq bütün ikitərəfli rəsmi kreditorların bu təşəbbüsdə iştirak edəcəyi ifadə edilərək, özəl kreditorları da təşəbbüsə qoşulmağa çağırılıb. G20 maliyyə nazirləri və mərkəzi bank rəhbərləri yeni növ koronavirusun yayılması ilə mübarizədə ehtiyatlı olmağa davam etdiklərini və lazım olduqda əlavə tədbirlər görməyə hazır olduqlarını bildirir.

## Tuba Büyüküstün gözəllik sirri açıqlandı

Karantin günlərində yutub kanalında canlı yayım açıb pərəstişkarları ilə görüşən Tuba Büyüküstün gözəlliyinin sirrinin təbiilik olduğunu bildirib. Kino ulduzu "Yalnız üzümü yuyub krem çəkirəm. Daha çoxunu etmək üçün tənbələm" deyə açıqlama verib.



## Karantin rejimini pozaraq qumar oynayan şəxslər saxlanıldı

Tərtərdə xüsusi karantin rejimini pozaraq qumar oynayan şəxslər cərimələnib. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətinin Bərdə regional qupundan SİA-ya verilən məlumata görə, ölkə ərazisində xüsusi karantin rejiminin elan edilməsinə baxmayaraq bəzi şəxslər tərəfindən nizam-intizamın pozulması hallarına rast gəlinməkdədir.

Belə ki, Tərtər Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları tərəfindən keçirilən tədbir zamanı rayon ərazisindəki avtomobil təmiri sexinin önündə 6 nəfərin xüsusi karantin rejimini pozaraq qumar və digər stolüstü oyunlar oynadıqları aşkar edilib. Polis əməkdaşları tərəfindən həmin şəxslər saxlanılaraq Polis Şöbəsinə gətiriliblər. Xüsusi karantin rejimin pozan şəxslər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə tədbir görülərək protokol tərtib edilib.

## Narkotik alverçisi tutuldu

Biləsuvar şəhər sakini M.Bayramzadə idarə etdiyi avtomobildən külli miqdarda narkotik vasitələr aşkar edilərək götürülüb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Biləsuvar Rayon Polis Şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən şəhər sakini M.Bayramzadə idarə etdiyi "VAZ-2106" markalı avtomobillə saxlanılıb. Baxış zamanı avtomobildən 19 kiloqram 400 qram heroin, 6 kiloqram 315 qram qurudulmuş marixuana, 4 kiloqam 25 qram psixatrop maddə olan metamfetamin aşkar edilərək götürülüb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**